# MÜNDƏRİCAT


**RƏSMİ XRONİKA**

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DİPLOMATİK FƏALİYYƏTİ** 3

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri** 3

26-27/08/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirakı 3

23-24/09/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri 4

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüşləri** 7

**Xarici ölkələrin dövlət və hökumət başçılarının Azərbaycan Respublikasına səfərləri** 9

29-30/09/05 – Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenin Azərbaycan Respublikasına rəsmi səfəri 9

**AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN DİPLOMATİK FƏALİYYƏTİ** 11

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun səfərləri** 11

2-4/08/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri 11

6-7/09/05 – Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarovun Avstriyaya rəsmi səfəri 12

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun görüşləri** 14

**MÜSAHİBƏLƏR**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyənin "Star" televiziyasının siyasi icmalçısı Ardan Zentürkə müsahibəsi 17

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Finlandiyanın "Yulesradio" dövlət teleradio şirkətinin müxbirlərinə müsahibəsi 20

**ÇIXIŞLAR**

Address by Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, at 568th (special) meeting of the OSCE Permanent Council. Vienna, 6 September 2005 25

Statement by Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, at the High-Level Plenary Meeting of the 60th session of the United Nations General Assembly. New York, 16 September 2005 29

Statement by Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, at the General Debate of the 60th Session of the United Nations General Assembly. New York, 18 September 2005 30

**ERMƏNİSTAN – AZƏRBAYCAN MÜNAQİŞƏSİ**

**ERMƏNİSTAN – AZƏRBAYCAN MÜNAQİŞƏSİ MƏTBUATDA** 33

İslam Konfransı Təşkilatı Ermənistanın Azərbaycana təcavüzünü bir daha pisləmişdir 33

Rumıniyanın Xarici İşlər Naziriliyi Dağlıq Qarabağdakı qondarma parlament seçkilərini pisləyir 33

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bağlı qapılar arxasında müzakirə edilmişdir 33

ATƏT-in Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri ilə görüşmüşlər 34

ATƏT-in Minsk qrupunun həmsədrləri mətbuat konfransı keçirmişlər 34

ATƏT-in Parlament Assambleyasının Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Qoran Lenmarkerin məruzəsi açıqlandı 34

ABŞ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsi üçün səylərini artıracaqdır 35

İsrail Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllinə tərəfdardır 35

Azərbaycanın ABŞ-dakı səfiri konqresmenləri ermənipərəst həmkarlarının saxtakarlığına uymamağa çağırır 36

Vaşinqton Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır 37

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli Böyük Britaniyanın maraqlarına cavab verir 37

Parisdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə alt komitənin iclası keçirilmişdir 37

BMT-nin Baş Assambleyası Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyətə dair məsələnin 60-cı sessiyanın gündəliyinə salınması barədə qərar qəbul etmişdir 38

**XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ**

Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan Respublikası Dövlət komissiyasının və Gürcüstan Hökumət komissiyasının yeddinci birgə iclası keçirilmişdir 39

Milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun xarici ekspertlərlə birgə Milli Təhlükəsizlik Konsepsiyasının müzakirəsi üzrə iclası keçirilmişdir 39

**BRİFİNQLƏR** 39

**TƏDBİRLƏR** 40

"Terrorçuluqla mübarizə və insan hüquqları" mövzusunda seminar. Bakı, 16 iyul 2005 40

**AZƏRBAYCAN RESPUBLİKASININ XARİCDƏKİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRİNDƏ**

**TƏYİNATLAR** 43

A.T. Hüseynə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 43

A.T. Hüseynin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 43

M.N.Əliyevin Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı __ 43

M.N.Əliyevin Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı __ 44

Z.A.Həşimova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 44

Z.A.Həşimovun Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı __ 44

P.O.Şahbazova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 44

P.O.Şahbazovun Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı __ 45

İ.Ə.Hacıyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı __ 45

İ.Ə.Hacıyevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı __ 45

**TƏRCÜMEYI-HALLAR** __ 46

Azər Hüseyn __ 46

Məmməd Əliyev __ 47

Zakir Həşimov __ 48

Pərviz Şahbazov __ 49

İbrahim Hacıyev __ 50

**ETİMADNAMƏLƏRİN TƏQDİM EDİLMƏSİ** __ 51

Azərbaycan Respublikasının səfiri etimadnaməsini Koreya Respublikasının Prezidentinə təqdim etmişdir 51

Azərbaycan Respublikasının səfiri etimadnaməsini Türkiyə Respublikasının Prezidentinə təqdim etmişdir 51

Azərbaycan Respublikasının səfiri etimadnaməsini Latviya Prezidentinə təqdim etmişdir __ 52

Azərbaycan Respublikasının səfiri etimadnaməsini Almaniya Federativ Respublikasının Prezidentinə təqdim etmişdir __ 52

**MƏQALƏLƏR**

Евгений Алиев, Процесс контроля над вооружением в Закавказье __ 53

Ариф Самедов, Конфликты на Южном Кавказе и внешняя политика России на современном этапе __ 64

Şəhla Qəhrəmanova, Diplomatik xidmətin və diplomatik protokolun təşəkkülü tarixindən __ 68

Юрий Помпеев, О водворении пришелцев в Азербайджан __ 71

**YENİ NƏŞRLƏR**

Е.Белоглазова, Совершенно секретный генерал __ 76

A.Yunusov, Karabakh. Past and present __ 76

Н.Сафаров, Экстрадиция в международном уголовном праве: проблемы теории и практики __ 77

The Azeri-Anglo Youth Society, Azerbaijan: 100 Questions Answered __ 77

**REDAKSİYA ŞURASI**

**Elmar Məmmədyarov**
Nazir (Baş redaktor)

**Novruz Məmmədov,** Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Xarici əlaqələr şöbəsinin müdiri
**Araz Əzimov,** Nazir müavini,
**Xələf Xələfov,** Nazir müavini,
**Mahmud Məmməd-Quliyev,** Nazir müavini,
**Vaqıf Sadıqov,** Nazir müavini

**REDAKSİYA HEYƏTİ**

**Samir Məlikli,** Mətbuat və informasiya siyasəti idarəsinin üçüncü katibi
**Cavid Nəsirov,** Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) attaşesi
**Nurlan Əliyev,** Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti (məsul katib)
**Kamilə Məmmədova,** Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) referenti

© Müəllif hüquqları qorunur.
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun gəlməyə bilər.
Qeyri-dəqiq faktlara görə yazıların müəllifləri məsuliyyət daşıyırlar.

“Diplomatiya Aləmi” jurnalı 2002-ci ildən çıxır.
**Qeydiyyat № 1161, 14 yanvar 2005-ci il**

**Ünvan:** Xarici İşlər Nazirliyi, Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsi (Mərkəz), Ş.Qurbanov küç. 4, Bakı AZ 1009;
**Tel.:** 492 73 28; 492 80 35; **e-poçt:** css@mfa.gov.az; t_musayev@mfa.gov.az

**Jurnalın satışı, nəşri, abunə yazılması və digər texniki məsələlər:**
Tel. 492 96 92 (21 28), **Səlim Əlizadə**
Korrektor: **Nazir Məmmədov**



# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN DİPLOMATİK FƏALİYYƏTİ

## AZƏRBAYCAN RESPUBLIKASININ PREZIDENTI İLHAM ƏLIYEVIN SƏFƏRLƏRI

### 26-27/08/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kazan şəhərinin 1000 illiyi ilə əlaqədar yubiley tədbirlərində və MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirakı

Avqustun 26-da Kazan bələdiyyəsinin binasında (ratuşa) MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının növbəti – sayca 40-cı zirvə görüşü keçirilmişdir.

Əvvəlcə qapalı keçən iclasda Azərbaycan Prezidenti İlham Əliyev, Belarus Prezidenti Aleksandr Lukaşenko, Ermənistan Prezidenti Robert Koçaryan, Gürcüstan Prezidenti Mixail Saakaşvili, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Prezidenti Kurmanbek Bakiyev, Moldova Prezidenti Vladimir Voronin, Özbəkistan Prezidenti İslam Kərimov, Rusiya Prezidenti Vladimir Putin, Tacikistan Prezidenti Emoməli Rəhmonov, Ukrayna Prezidenti Viktor Yuşşenko, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Ağaniyaz Akıyev iştirak edirdilər.

Gündəliyə "MDB-nin üzvü olan ölkələrin humanitar əməkdaşlığı haqqında saziş", "Çernobıl AES-də qəzanın 20-ci ildönümü ilə əlaqədar MDB ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciət", eləcə də terrorizm və qeyri-leqal miqrasiya ilə bağlı mübarizəyə dair sənədlər, "BMT-nin 60 illik yubileyi ilə əlaqədar dövlət başçılarının bəyanatı"nın qəbulu, "2006-cı ilin MDB ili elan olunması" və digər məsələlər daxil idi.

MDB Dövlət Başçıları Şurasının sədri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin iclası açaraq demişdir ki, ötən sammitdən keçən müddət ərzində Müstəqil Dövlətlər Birliyi çərçivəsində müxtəlif formatlarda



keçirilən görüşlərin hamısı ölkələrimiz arasında əlaqələrin möhkəmlənməsinə, əməkdaşlığın gücləndirilməsinə xidmət etmişdir.

Təxminən iki saat yarım çəkən iclasdan sonra zirvə görüşü geniş tərkibdə davam etdirilmişdir. Dövlət Başçıları Şurasının sədri, Rusiya Prezidenti Vladimir Putin iclası açaraq, zirvə görüşünün Kazanın 1000 illik yubileyi şənlikləri günlərində keçirilməsini əlamətdar, mühüm tarixi hadisə adlandırmış, görüşün yüksək səviyyədə təşkilinə görə Tatarıstan Respublikasının rəhbərliyinə dövlət başçıları adından dərin təşəkkürünü bildirmişdir.

Müstəqil Dövlətlər Birliyi orqanlarının təkmilləşdirilməsi və islahatı, humanitar sahədə əməkdaşlıq məsələləri müzakirələrin əsas mövzusu olmuşdur.

Zirvə görüşünün nəticəsi olaraq bir sıra sənədlər imzalanmışdır. Dövlət başçıları ötən müddətdə Şuraya rəhbərlik etmiş Rusiya

Federasiyasının Prezidenti Vladimir Putinin fəaliyyətini yüksək qiymətləndirərək ona təşəkkürlərini bildirmişlər.

MDB dövlət başçılarının növbəti zirvə görüşünün 2006-cı ildə Belarusun paytaxtı Minsk şəhərində keçirilməsi qərara alınmışdır.

Zirvə görüşündə iştirak edən ölkələrin prezidentləri və onları müşayiət edən şəxslər iclasdan sonra Kazan Kremlində "Qul Şərif" məscidi və Blaqoveşeniye kilsəsi ilə tanış olmuşlar.

Sonra prezidentlər MDB-nin üzvü olan ölkələrin dövlət bayraqları önündə xatirə şəkli çəkdirmişlər.

Zirvə görüşü başa çatdıqdan sonra yekun mətbuat konfransı keçirilmişdir. Həmkarları adından jurnalistlər qarşısında çıxış edən Rusiya Prezidenti Vladimir Putin çoxmillətli Kazan şəhərində onlara göstərilən yüksək qonaqpərvərliyə görə Kazan sakinlərinə minnətdarlığını bildirmişdir. O demişdir ki, MDB-də islahatlar aparmağın vaxtı çoxdan çatmışdır, lakin belə mürəkkəb məsələdə tələsmək olmaz. Ən başlıcası odur ki, prezidentlərin hamısı iqtisadi və humanitar sahələrdə inteqrasiyada maraqlı olduqlarını söylədilər. MDB-nin islahatlarına dair müxtəlif fikirlər var, lakin ümumi qərar hökmən tapılacaqdır.

İmzalanmış sənədlər sübut edir ki, MDB ölkələri inteqrasiyanın güclənməsini istəyir.

V.Putin bildirmişdir ki, görüşdə Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin 2009-cu ildə ATƏT-in sədri vəzifəsinə namizədliyinin dəstəklənməsi barədə yekdilliklə qərar qəbul edilmişdir.

Sonra MDB üzvü olan ölkələrin dövlət başçıları, Musa Cəlil adına Tatarıstan Dövlət Akademik Opera və Balet Teatrına gəlmişlər. Burada prezidentlərin şərəfinə və Kazan şəhərinin 1000 illik yubileyinə həsr olunmuş təntənəli konsert olmuşdur.

Avqustun 26-da Kazandakı "Piramida" əyləncə kompleksində Tatarıstan paytaxtının 1000 illiyi ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından Birlik ölkələri dövlət başçılarının şərəfinə ziyafət verilmişdir.

Avqustun 27-də Tatarıstan Respublikasının paytaxtı Kazanda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın görüşü keçirilmişdir. ATƏT-in Minsk qrupu həmsədrlərinin də iştirak etdikləri görüşdə dövlət başçıları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələlərini geniş müzakirə etmişlər.

Sonra görüş təkbətək davam etdirilmişdir. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev Tatarıstan paytaxtına səfərini başa çatdırmışdır.

**"AzərTAC" 27.08.08**

## 23-24/09/05 – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstana rəsmi səfəri

**Səfər zamanı keçirilmiş görüşlər:**

Bolqarıstan Prezidenti Georgi Pirvanov ilə təkbətək görüş
Bolqarıstan Prezidenti Georgi Pirvanov ilə geniş tərkibdə görüş
Bolqarıstan parlamentinin - Xalq Məclisinin sədri Georgi Pirinski ilə görüş
Milli və Dünya Təsərrüfatı Universitetinin rektoru Borislav Borisov ilə görüş
Bolqarıstanın keçmiş Prezidenti Jelyu Jelevlə görüş
Varna şəhərində yerləşən "Riviera Biç" hotel-kompleksində "Bolqarıstan yeni açıq ölkədir" devizi altında turizm layihəsinin təqdimatında iştirak

**Səfər zamanı imzalanmış sənədlər:**

Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pirvanovun birgə bəyannaməsi
Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında Avropa və Avratlantik inteqrasiyası sahəsində əməkdaşlıq haqqında memorandum
Azərbaycan Respublikası Hökuməti ilə Bolqarıstan Respublikası Hökuməti arasında sadələşdirilmiş viza rejimi haqqında saziş
Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Bolqarıstan Respublikasının "Tamojnı" agentliyi arasında kadrların peşəkar hazırlığının və ixtisasının artırılması üzrə gömrük əməkdaşlığının təkmilləşdirilməsi sahəsində qarşılıqlı anlaşma protokolu
Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının aviasiya hakimiyyəti orqanları

arasında gələcək əməkdaşlıq haqqında protokol
Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti və Bolqarıstan Milli Televiziyası arasında əməkdaşlıq haqqında saziş
Bolqarıstan-Azərbaycan Dostluq Cəmiyyəti və Azərbaycan-Bolqarıstan Dostluq Cəmiyyəti arasında birgə fəaliyyət və əməkdaşlıq haqqında müqavilə

### *Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Georgi Pirvanovun birgə bəyannaməsi*



İkitərəfli əlaqələrin vəziyyəti və perspektivi, eləcə də Azərbaycan Respublikası və Bolqanstan Respublikasının beynəlxalq aləmdə qarşılıqlı fəaliyyətinin əsas məsələlərini müzakirə etdikdən sonra;

Azərbaycan-Bolqar əməkdaşlığının fəallaşması və dərinləşməsi üçün 2004-cü ilin 7-8 oktyabr tarixlərində Bolqarıstan Respublikası Prezidentinin Azərbaycan Respublikasına rəsmi səfərinin əhəmiyyətini qeyd edərək;

Bütün səviyyələrdə müntəzəm siyasi dialoqu dəstəkləməyə və iqtisadi, sosial, humanitar, gənclər, turizm, idman, hərbi-texniki əməkdaşlıq, ekologiya və digər sahələrdə əlaqələrin dərinləşdirilməsinə hazır olduqlarını təsdiq edərək;

İki dövlətin ümumi xarici siyasət prioritetlərini məmnunluqla qeyd edərək, Avropa və Avroatlantik inteqrasiyası sahəsində əməkdaşlığın dərinləşdirilməsinə çağıraraq;

İki dovlət arasında müqavilə-hüquqi bazasının bundan sonra da möhkəmləndirilməsinin vacibliyini qeyd edərək;

Azərbaycanda və Bolqarıstanda vətəndaş cəmiyyətinin demokratikləşməsi və bazar iqtisadiyyatının möhkəmləndirilməsinə, qanunun aliliyi, insan hüquq və əsas azadlıqlarının müdafıəsi və təminatı kimi müasir dünyanın prioritet universal dəyərlərinə öz bağlılıqlarını vurğulayaraq;

Hər iki dövlətin marağı daxilində, ikitərəfli və beynəlxalq əməkdaşlığın gələcəkdə qarşılıqlı inam ruhunda dərinləşməsinin regional, ümumavropa və dünya səviyyəsində sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə xidmət edəcəyinə əmin olaraq;

aşağıdakıları bəyan edirlər:

Azərbaycan Respublikası Prezidenti və Bolqarıstan Respublikası Prezidenti Azərbaycan və Bolqarıstan Parlamentləri arasında əməkdaşlığın fəallaşdırılmasını alqışlayırlar.

Prezidentlər iki ölkə arasında onların dinamik inkişaf edən iqtisadiyyatlarının həcminə və potensialına tam uyğun olan ticari, iqtisadi və elmi-texniki əməkdaşlığın lazımi səviyyəyə çatmasına nail olmaq üçün əlavə tədbirlərin görülməsini dəstəkləyirlər.

Prezidentlər ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Bolqarıstan birgə komissiyasının fəaliyyətinə və bu Komissiyanın 6-7 oktyabr 2004-cü ildə Bakı şəhərində keçirilmiş ikinci iclasının qərarlarının həyata keçirilməsinə boyük əhəmiyyət verirlər.

Prezidentlər iki ölkə arasında səmərəli iqtisadi layihələrin həyata keçirilməsi, kiçik və orta müəssisələrin fəaliyyətlərinin gücləndirilməsi, dövlət və özəl müəssisələr arasında əməkdaşlıq üçün əlverişli şəraitin təmin edilməsi və onların birliklərinin yaradılması, maliyyə və bank strukturları arasında, həmçinin hər iki ölkənin turistik firmaları və təşkilatları arasında əlaqələrin inkişaf etdirilməsinə köməklik göstərməyə hazır olduqlarını vurğulayırlar.

Prezidentlər mədəniyyət, elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə ikitərəfli sənədlərin imzalanması da daxil olmaqla əlavə tədbirlər görməyə çağırırlar. Prezidentlər hər iki ölkənin elm, təhsil, ədəbiyyat, incəsənət və digər sahələrin nümayəndələri arasında, kütləvi informasiya vasitələri, gənclər, tələbələr və həmkarlar ittifaqları arasında əlaqələrin genişləndirilməsinə dəstək verəcəklər.

Prezidentlər Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ikitərəfli əməkdaşlıq-

dan, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin, İNOGEYT proqramının həyata keçirilməsindən məmnun olduqlarını bildirir, həmçinin Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu layihəsinin və TRACEKA nəqliyyat dəhlizinin 8 saylı Avropa nəqliyyat dəhlizi xətti ilə davam etdirilməsinin artan əhəmiyyətini qeyd edirlər.

Bolqarıstan tərəfi Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına qoşulmasını dəstəkləyir.

İki dövlətin başçıları terrorizmin bütün forma və təzahürlərini pisləyir və bu qlobal təhlükəyə qarşı mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın güclənməsini alqışlayırlar. Prezidentlər mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, qeyri-qanuni miqrasiyaya, insan alverinə, çirkli pulların yuyulmasına, narkotiklərin, psixotrop maddələrin və prekursorların, kimyəvi toksik maddələrin, yüngül odlu silahların, hərbi sursatların, partlayıcı maddələrin qanunsuz dövriyyəsinə, hava quldurluğu və eyni zamanda kütləvi qırğın silahlarının və onun daşınma vasitələrinin yayılmasına qarşı mübarizə sahəsində səmərəli ikitərəfli və çoxtərəfli əməkdaşlığın gücləndirilməsini dəstəkləyirlər.

Hər iki dövlət başçısı Avropa Qonşuluq Siyasətinin Azərbaycanın, o cümlədən Cənubi Qafqazın digər dövlətlərinin Avropa İttifaqına yaxınlaşmasına müsbət təsir etməsindən məmnun olduqlarını qeyd edirlər. Prezidentlər bu prosesə cəlb olunduqlarını təsdiq edərək bu sahədə birgə fəaliyyəti təşviq etməyə hazır olduqlarını bəyan edirlər. Prezidentlər həmçinin Avropa Qonşuluq Siyasətinin əməkdaşlığın inkişafına, sülhün və sabitliyin qorunmasına, o cümlədən Cənubi Qafqazda dövlətlərin inkişafına kömək edəcəyinə əmin olduqlarını bildirirlər.

Prezidentlər Avropa inteqrasiya prosesinə töhfə kimi regionda münaqişələrin dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına, BMT Nizamnaməsi və ATƏT-in başlıca sənədlərinə uyğun olaraq sülh yolu ilə həll edilməsinin vacibliyini vurğulayırlar.

Hər iki Prezident Avroatlantik Tərəfdaşlıq Şurası, NATO-nun "Sülh naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində birgə fəaliyyəti və Azərbaycanın təqdim etdiyi Fərdi Tərəfdaşlıq Əməliyyat Planını dəstəklədiklərini ifadə edirlər. Hər iki dövlət başçısı Avroatlantik strukturların regional təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsində vacib rolunu nəzərə alaraq, bu çərçivədə ikitərəfli və çoxtərəfli əməkdaşlığa böyük əhəmiyyət verirlər.

Bu kontekstdə, Prezidentlər ATƏT-in Minsk Qrupu çərçivəsində və onun həmsədrləri tərəfindən Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş əlavə tədbirlərin görülməsinin vacibliyini qeyd edirlər.

Azərbaycan Respublikası Prezidenti və Bolqarıstan Respublikası Prezidenti hazırkı Birgə Bəyannamənin Azərbaycan - Bolqarıstan əməkdaşlığına xüsusi təkan verəcəyinə əmin olduqlarını bildirirlər.

Sofıya şəhərində 23 sentyabr 2005-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan, bolqar və ingilis dillərində imzalanmışdır.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN GÖRÜŞLƏRİ

| | |
|---|---|
| **1 iyul -** | "Aqo" monitorinq qrupunun nümayəndə heyəti ilə görüş |
| **4 iyul -** | Avropa Şurası Parlament Assambleyasının Avropa demokratlar qrupunun rəhbəri Mixail Margelov ilə görüş |
| **4 iyul -** | Rusiya Federasiyası hökumətinin keçmiş sədri Viktor Çernomırdin ilə görüş |
| **5 iyul -** | Avropa Şurası Parlament Assambleyası Monitorinq komitəsinin və Qaçqınlar üzrə alt komitəsinin üzvləri ilə görüş |
| **5 iyul -** | Avropa Şurası Parlament Assambleyası Monitorinq komitəsinin sədri Giorgi Frundanı ilə görüş |
| **6 iyul -** | Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talviti ilə görüş |
| **8 iyul -** | Pakistan İslam Respublikasının daxili işlər naziri Aftab Əhməd xan Şerpaon ilə görüş |
| **8 iyul -** | Fransa Respublikasının "Teknip" şirkətlər qrupu Direktorlar şurasının sədri və baş icraçı katibi Daniel Valot ilə görüş |
| **11 iyul -** | ATƏT-in Minsk qrupunun həmsədrləri – səfirlər Stiven Mənn, Yuri Merzlyakov və Bernar Fasye ilə görüş |
| **13 iyul -** | Yaponiya Xarici Əlaqələr İnstitutunun direktoru, Xarici İşlər Nazirliyinin baş müşaviri, səfir Toşiyuki Fucivara ilə görüş |
| **13 iyul -** | İran İslam Respublikası Prezidentinin Xəzər məsələləri üzrə xüsusi nümayəndəsi Mehdi Səfəri ilə görüş |
| **13 iyul -** | ABŞ-ın Milli Demokratiya İnstitutu idarə heyətinin sədri, sabiq dövlət katibi Madlen Olbrayt ilə görüş |
| **14 iyul -** | ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Ata Corc Buşun prezidentliyi dövründə Ağ ev administrasiyasının rəhbəri olmuş Con Sunun ilə görüş |
| **14 iyul -** | ABŞ-ın Brukinqs İnstitutunun analitiki xanım Fiona Hill ilə görüş |
| **18 iyul -** | Qətər dövləti Silahlı Qüvvələrinin baş qərargah rəisi general-polkovnik Həməd Bin Əli əl-Atiyyənin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **19 iyul -** | Gürcüstanın baş naziri Zurab Noğaideli ilə görüş |
| **20 iyul -** | Türkiyə Respublikasının müdafiə naziri Vəcdi Könül ilə görüş |
| **20 iyul -** | MDB Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri Komitəsinin sədri Ruslan Auşev ilə görüş |
| **23 iyul -** | Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktorunun müavini Aqustin Karstensin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **23 iyul -** | Tailand Krallığının baş prokuroru Kampri Kaoçarern ilə görüş |
| **27 iyul -** | ABŞ dövlət katibinin qlobal məsələlər üzrə müavini Pola Dobryanski ilə görüş |
| **1 avqust -** | Ukraynanın Azərbaycan Respublikasındakı səfiri Anatoli Yurçenko ilə ölkəmizdə səlahiyyət müddətinin başa çatması ilə əlaqədar görüş |
| **2 avqust -** | İsrailin Azərbaycan Respublikasında diplomatik fəaliyyəti başa çatmış səfiri Eytan Naye ilə ölkəmizdə səlahiyyət müddətinin başa çatması ilə əlaqədar görüş |
| **5 avqust -** | Beynəlxalq Güləş Federasiyaları Assosiasiyasının prezidenti Rafael Martinetti ilə görüş |
| **8 avqust -** | Dağıstanlı yazıçı-tədqiqatçı, türkdilli xalqların tarixinin araşdırıcısı Murad Aci ilə görüş |
| **10 avqust -** | İtaliyanın Azərbaycan Respublikasındakı səfiri Marqarita Kosta ilə ölkəmizdə səlahiyyət müddətinin başa çatması ilə əlaqədar görüş |
| **12 avqust -** | Almaniya Federativ Respublikası Federal Kəşfiyyat Xidmətinin rəhbəri Auqust Hanninqin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **15 avqust -** | İsveçin baş nazirinin ofisini təmsil edən Dövlət Katibi Lars Danielsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **15 avqust -** | Gürcüstanın daxili işlər naziri Vano Merabişvili ilə görüş |

**22 avqust -** Avropa Şurası Parlament Assambleyasının sədri Rene van der Linden ilə görüş
**24 avqust -** YUNESKO-nun Baş direktoru Koişiro Matsuura ilə görüş
**29 avqust -** Türkiyə Respublikasının Ədalət və İnkişaf Partiyası sədrinin müavini Şaban Dişli, partiya sədrinin müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı Murad Mercan və TBMM-in AŞPA-dakı nümayəndə heyətinin üzvü, millət vəkili İnci Dərvişi ilə görüş
**29 avqust -** Gürcüstanın Kəşfiyyat Departamentinin sədri Batu Kuteliya ilə görüş
**30 avqust -** Türkiyə Respublikasının Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suverin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş
**31 avqust -** ABŞ Senatının Xarici əlaqələr komitəsinin sədri Riçard Luqarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş
**1 sentyabr -** Norveç Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traavik ilə görüş
**5 sentyabr -** Avropa Şurasının baş katibi Terri Devisin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş
**5 sentyabr -** ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniya Respublikasının xarici işlər naziri Dimitri Rupelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş
**6 sentyabr -** Finlandiyanın Azərbaycan Respublikasındakı səfiri xanım Terhi Hakkala ilə görüş
**7 sentyabr -** Türkiyə Respublikası Silahlı Qüvvələri Quru Qoşunlarının Komandanı, ordu generalı Yaşar Böyükanıtın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş
**7 sentyabr -** Beynəlxalq Sosial Təminat Assosiasiyasının “Qloballaşma və əmək miqrantlarının sosial müdafiəsi” mövzusunda Avropa iclasının iştirakçıları ilə görüş
**12 sentyabr -** İncilin təbliği konqreqasiyasının prefekti, kardinal Kreşentsio Sepenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş
**13 sentyabr -** İsrail Dövlətinin, İtaliya Respublikasının və Polşa Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Artur Lenk, Can Luici Maşan və Kşiştof Krayevskinin etimadnamələrinin qəbul edilməsi
**14 sentyabr -** Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş
**14 sentyabr -** Asiya İnkişaf Bankının icraçı direktoru, səfir Pol Speltsin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş
**14 sentyabr -** Moskvanın və Bütün Rusiyanın Patriarxı II Aleksini və onun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş
**19 sentyabr -** Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Çjan Siyun ilə görüş
**20 sentyabr -** ABŞ-ın Corctaun Universitetinin Mərkəzi Asiya-Qafqaz İnstitutunun tədqiqat və nəşriyyat məsələləri üzrə direktoru Svante Kornelli ilə görüş
**21 sentyabr -** “İslam ümmətinin həmrəyliyi” mövzusunda Bakıda keçirilən beynəlxalq konfransın iştirakçıları ilə görüş
**22 sentyabr -** ABŞ-ın Alman Marşall Fondunun nümayəndə heyəti ilə görüş
**26 sentyabr -** MDB-yə üzv olan ölkələrin V Beynəlxalq İdman Oyunlarının baş hakimi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, kosmonavt Aleksey Leonov ilə görüş
**27 sentyabr -** Bakıda keçirilən “Yeni təhlükəsizlik şəraitində qadınların rolu: Gender amilinin strateji əhəmiyyəti” mövzusunda beynəlxalq konfransın iştirakçıları ilə görüş
**28 sentyabr -** GUAM-ın üzvü olan ölkələrin sərhəd xidməti rəhbərlərinin III iclasının iştirakçıları – Ukrayna Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Nikolay Litvin, Moldova Sərhəd Xidmətinin baş direktoru, briqada generalı İqor Kolenov, Gürcüstan Daxili İşlər Nazirliyinin Dövlət Sərhədinin Mühafizəsi Departamentinin sədri, ədliyyə general-leytenantı Badri Bitsadze ilə görüş.

# XARİCİ ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ AZƏRBAYCAN RESPUBLİKASINA SƏFƏRLƏRİ

## 29-30/09/05 – Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonenin Azərbaycan Respublikasına rəsmi səfəri

**Səfər zamanı keçirilmiş görüşlər:**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə təkbətək görüş

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə geniş tərkibdə görüş

Milli Məclisin sədri Murtuz Ələsgərov ilə görüş

Azərbaycan-Finlandiya biznes forumunda iştirak

YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ilə görüş

**Səfər zamanı imzalanmış sənədlər:**

Azərbaycan Respublikası və Finlandiya Respublikası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında saziş

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Finlandiya Respublikasının Xarici İşlər Nazirliyi arasında Anlaşma memorandumu

### Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Finlandiya Respublikası Prezidenti Tarya Halonenin birgə mətbuat konfransı

Sentyabrın 29-da Prezident Sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Finlandiya Respublikasının Prezidenti xanım Tarya Halonen birgə mətbuat konfransı keçirmişlər. Dövlət başçıları mətbuat konfransında nitqlə çıxış etdilər.



### Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, sizin hamınızı bir daha Azərbaycanda salamlamaq istəyirəm.

Keçirdiyimiz görüşlər, apardığımız müzakirələrlə bağlı dərin məmnunluq hissimi vurğulamaq istərdim. Biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini nəzərdən keçirdik. Biz siyasi dialoqun səviyyəsindən çox razıyıq, eyni zamanda, mən ümid edirəm ki, bizim münasibətlərimiz böyük sürətlə inkişaf edəcəkdir. Bunun üçün çox böyük imkanlar var. Zənnimcə, iqisadi əlaqələr genişləndirilməlidir. Çünki ölkələrimizin iqtisadi potensialı artmaqdadır. Ona görə də mən ümid edirəm ki, sabah keçiriləcək biznes forumun praktiki baxımdan çox böyük əhəmiyyəti vardır. Şübhəsiz ki, biz öz göstərişlərimizi, əsas istiqamətlər üzrə təlimatlarımızı verə bilərik. Lakin bunun həyata keçirilməsi üçün, ümumi əməkdaşlıq üçün əsasların tapılması məhz iş adamları tərəfindən müəyyən olunmalıdır.

Biz burada, regionda mövcud olan münaqişələrin həlli yollarını da müzakirə etdik. Hesab edirəm ki, səmimi müzakirələr və açıq söhbətlər bu problemin daha yaxşı formada başa düşülməsini mümkün edəcəkdir. Cənubi Qafqaz regionunda ümumi problemlər var və Qafqazdakı münaqişələr bizim inkişaf yolumuzda duran əsas maneələrdən biridir.

Hazırda Azərbaycanda sosial-iqtisadi islahatlar aparılmaqdadır və Avropa strukturlarına daha sıx inteqrasiya olunmaq siyasətimizi davam etdiririk. Biz Avropa İttifaqının "Yeni qonşuluq siyasəti"nə daxil edilmişik. Bu da Avropa İttifaqı ilə daha sıx əməkdaşlığa zəmin yaradır. Avropa İttifaqı ilə münasibətlərin

inkişafı bizim xarici siyasətimizin əsas prioritetlərindən biridir. Finlandiyanın bizim Avropaya inteqrasiyamıza verdiyi dəstək çox əlamətdardır. Biz bu dəstəyi indiyə qədər hiss etmişik. Ümumiyyətlə, mən əminəm ki, xanım Prezidentin səfəri ikitərəfli münasibətlərimiz üçün çox əhəmiyyətlidir. Ümidvaram ki, bu səfərdən sonra biz bir çox işləri birgə görəcəyik, əlaqələri daha sıx quracağıq və ölkələrimiz, xalqlarımız naminə işləyəcəyik. Mən bir daha Sizə və nümayəndə heyətinə minnətdarlığımı bildirir, uğurlar arzulayıram.

## Finlandiya Respublikası Prezidenti Tarya Halonenin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən də öz tərəfimdən Azərbaycan Prezidentinə minnətdarlığımı bildirirəm.

Mənim Azərbaycana ilk səfərim təqribən 9 il bundan əvvəl, 1996-cı ildə baş tutmuşdu. Mən ölkənizdə baş verən dəyişiklikləri görməkdə çox maraqlı idim. Görürəm ki, bu dəyişikliklər iqtisadi sahədə çox sürətlə gedir. Bir çox işlər görülür, böyük irəliləyiş əldə olunubdur. Sizə gələcəkdə bu istiqamətdə daha böyük uğurlar arzulayıram. Gələcək planları müzakirə etmək bizim üçün çox maraqlı idi.

Sizin siyasi inkişafla bağlı əldə etdiyiniz nailiyyətləri eşitməkdən çox məmnun oldum. Biz bilirik ki, noyabr ayında ölkənizdə parlament seçkiləri keçiriləcək və siz həmin seçkilərdə üzvü olduğunuz Avropa Şurasının dəyərlərinin də nümayiş etdirilməsinə çalışacaqsınız.

Sabah biznes forumu keçiriləcək, ikitərəfli iqtisadi münasibətlərin inkişafı üçün mövcud olan imkanlar müzakirə ediləcəkdir. Cənab Prezident, Sizin burada qeyd etdiyiniz kimi, artıq iki ölkə arasında iqtisadi əməkdaşlıq üçün zəmin yaradılıbdır. Bu gün nazirlər tərəfindən imzalanan iki sənəd ümumi işlərimizdə irəliyə doğru atılmış addım olacaqdır. Ümid edirəm ki, biznes forumundan sonra daha fəal əməkdaşlıq edə biləcəyik.

O ki qaldı regional məsələlərə, Siz bilirsiniz ki, mən keçmişdə Azərbaycana səfər etmişdim. Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatım vardır. Mən bilirəm ki, Minsk qrupu fəaliyyətə başlayandan etibarən bu sahədə hələ müsbət dəyişikliklər olmamışdır. Avropa İttifaqı bu məsələnin aradan qaldırılmasında çox maraqlıdır. ATƏT, o cümlədən digər təşkilatlar bu münaqişənin həllinə maraq göstərirlər. Xatırlatmaq istəyirəm ki, Avropa İttifaqı finlandiyalı diplomat Heyki Talvitiyeni Avropa İttifaqının Cənubi Qafqazdakı xüsusi nümayəndəsi təyin etmişdir.

Mən “Yeni qonşuluq siyasəti”nə dair bir neçə söz demək istəyirəm. Siz bunun Azərbaycan üçün nə qədər vacib olduğunu artıq qeyd etdiniz. Lakin onu demək istəyirəm ki, bu, həmçinin Avropa İttifaqı üçün də vacibdir. Avropa İttifaqı alınmaz böyük qala deyildir. Görürsünüz ki, Avropa İttifaqı yeni üzvlər qəbul edir. Burada Rumıniya və digər ölkələr var, daha sonra Ukraynanın məsələsi var. Mən çox ümid edirəm ki, bundan sonra digər ölkələrin namizədliklərinə də baxılacaqdır.

Lakin buna qədər ölkəniz həmin siyasət çərçivəsində lazımi addımların atılmasını həyata keçirməlidir. Hesab edirəm ki, Avropa İttifaqının “Yeni qonşuluq siyasəti” çərçivəsində biz mümkün qədər qısa müddətdə ölkələrimizin maraqlarına uyğun olaraq bir çox irəliləyişlər əldə edə biləcəyik.

Yeri gəlmişkən, onu da deyim ki, mən Azərbaycan Prezidentini Finlandiyaya rəsmi səfərə dəvət etdim. O, bu dəvəti məmnunluqla qəbul etdi.

**“AzərTAC” 30.09.05**



# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN DİPLOMATİK FƏALİYYƏTİ

## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN SƏFƏRLƏRİ

### 2-4/08/05 – Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov ABŞ-ın dövlət katibi Kondoliza Raysın dəvəti ilə avqustun 1-də Vaşınqtona gəlmişdir. Avqustun 2-dən 4-dək davam edən səfərin birinci günü E.Məmmədyarovun ABŞ-ın dövlət katibi xanım Kondoliza Rays, Dövlət Departamentinin Avropa və Avrasiya məsələləri üzrə baş məsləhətçisi, ATƏT-in Minsk qrupunun ABŞ-lı həmsədri Stiven Mənnlə görüşmüş, bundan əlavə bir neçə KİV nümayəndəsinə müsahibə vermişdir. Səfərin ikinci günü – avqustun 3-də nazir, ABŞ Prezidenti Corc Buşun milli təhlükəsizlik üzrə məsləhətçisinin müavini Cək Krauç, sabiq dövlət katibinin müavini Riçard Armitac, Cons Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz institutunun sədri, görkəmli regionşünas doktor Fred Starla görüşlər keçirmiş, Milli Demokratiya İnstitutu, Beynəlxalq Respublikaçılar İnstitutu, Seçki Sistemləri üzrə Beynəlxalq Fond kimi qeyri-hökumət təşkilatları, Dövlət Departamenti, Milli Təhlükəsizlik Şurası nümayəndələrinin iştirak etdikləri dəyirmi masada çıxış etmişdir.

Avqustun 2-də xarici işlər naziri Elmar Məmmədyarov ABŞ-ın dövlət katibi Kondoliza Raysla görüşmüşdür. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan ABŞ-ın rolu, Qafqazda hazırkı vəziyyət, Xəzər hövzəsinin enerji layihələri, noyabrda keçiriləcək parlament seçkilərinə hazırlıq və ABŞ-Azərbaycan münasibətlərinin gələcək inkişafı və genişləndirilməsinə dair fikir mübadiləsi aparılmışdır. Xarici işlər naziri görüşün nəticələri barəsində jurnalistlərə bildiribdir ki, K.Rays Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Minsk qrupunun həmsədri kimi ABŞ-ın öz səylərini gücləndirəcəyini vəd edibdir. Görüşdə, həmçinin, qarşıdan gələn parlament seçkiləri barədə müzakirələrə toxunan nazir deyib ki, ABŞ Azərbaycanda demokratiya sahəsində irəliləyişlərin olmasını istədiyini bildirib və qeyd edib ki, bu baxımdan Azərbaycanla ABŞ arasında çox gözəl münasibətlər qurulubdur. "İqtisadi münasibətlərə gəlincə, Bakı-Tiflis-Ceyhan neft, Bakı-Tiflis-Ərzurum qaz kəməri barəsində söhbət oldu"-deyən nazir görüşdə Qars-Axalkalaki-Bakı layihəsi barəsində də fikir mübadiləsi aparıldığını bildirmişdir. O, bu layihənin ABŞ tərəfindən yüksək qiymətləndirildiyini söylədi. Sonda E.Məmmədyarov görüşün nəticəsindən razı qaldığını vurğulamışdır.

Həmin gün E.Məmmədyarov ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Stiven Mənnlə də görüşmüşdür. Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan sülh danışıqları prosesi diqqət mərkəzində olmuşdur.

Avqustun 3-də Elmar Məmmədyarov ABŞ Prezidenti Corc Buşun milli təhlükəsizlik üzrə köməkçisinin müavini Cək Krauçla görüşmüşdür. Cənab Krauç terrora qarşı qlobal mübarizədə ABŞ-a göstərdiyi dəstəyə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirmişdir. O, ABŞ-Azərbaycan münasibətlərinin hazırkı səviyyəsini müsbət qiymətləndirmiş və qarşılıqlı əlaqələrin gələcək inkişafı üçün böyük potensialın olduğunu söyləmişdir. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübalilėsi aparılmışdır.

Həmin gün Elmar Məmmədyarov Milli Demokratiya İnstitutu, Beynəlxalq Respublikaçılar İnstitutu, Seçki Sistemləri üzrə Bey-

nəlxalq Fond kimi qeyri-hökumət təşkilatları, Dövlət Departamenti, Milli Təhlükəsizlik Şurası nümayəndələrinin iştirak etdikləri "dəyirmi masa"da çıxış etmişdir. Sual-cavab formatında keçirilən "dəyirmi masa"da nazir parlament seçkiləri ərəfəsində Azərbaycandakı vəziyyət barədə danışmışdır. Bir saat davam edən söhbət əsnasında seçki prosesinin texniki tərəfləri, namizədlərin seçkiqabağı kampaniyası, seçki prosesinin müşahidəsi və digər məsələlər nəzərdən keçirilmişdir.

Avqustun 4-də nazir dövlət katibi müavininin müavini Metyu Brayz, müdafiə nazirinin müavini Qordon İnqlənd və ABŞ Prezidentinin sabiq milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi, general Brent Skoukroftla görüşmüş, nüfuzlu Karnegi Fondunda "Azərbaycanın xarici siyasətinin prioritetləri" mövzusunda məruzə ilə çıxış etmişdir.

Daha sonra Elmar Məmmədyarov çoxsaylı suallara cavab vermişdir.

Elmar Məmmədyarov Vaşinqtonda ABŞ müdafiə nazirinin müavini Qordon İnqlənd ilə də görüşmüşdür. Söhbət zamanı Azərbaycanla ABŞ arasında hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq, antiterror koalisiyası çərçivəsində tərəfdaşlıq məsələləri, ABŞ-ın Azərbaycana hərbi yardım proqramları nəzərdən keçirilmişdir. Pentaqon rəsmisi koalisiya çərçivəsində yardımına görə Azərbaycan hökumətinə təşəkkürünü bildirmiş, hərbçilərimizin Əfqanıstan və İraqdakı yüksək səviyyəli xidmətini vurğulamışdır. Elmar Məmmədyarov ABŞ-la hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığın Azərbaycan üçün əhəmiyyətini qeyd etmiş, bu əməkdaşlığın gələcəkdə də davam etdirilməsində ölkəmizin maraqlı olduğunu bildirmişdir.

Nazirin ABŞ-da keçirdiyi görüşlərdə müzakirələrdə strateji infrastruktur layihələri, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihələrinə də toxunulmuş, həmçinin neft gəlirlərinin istifadəsində şəffaflığın təmin olunması məsələsində ölkəmizin Böyük Britaniyanın Baş naziri Toni Bleyer tərəfindən irəli sürülmüş Mineral Ehtiyatlar Sənayesində Şəffaflıq Təşəbbüsündə iştirakı, iqtisadi islahatlar, hökumətin təhsil və səhiyyə sahələrinin inkişafına yönəlmiş siyasəti, regional məsələlər, ABŞ-ın bölgədəki vəziyyətə dair siyasəti və rəsmi Vaşinqtonun regional təşkilatlarla, o cümlədən GUAM-la əməkdaşlıq perspektivlərinin müzakirə obyekti olmuşdur.

Vaşinqtona səfərinin son günü Elmar Məmmədyarov sabiq milli təhlükəsizlik üzrə köməkçi Brent Skoukroft və sabiq dövlət katibinin müavini Riçard Armitacla qeyri-rəsmi görüşlər keçirmişdir.

**XİN-in Mətbuat Mərkəzinin 05.08.05 tarixli məlumatı**

## 6-7/09/05 - Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarovun Avstriyaya rəsmi səfəri

Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 6-7-də Avstriyada rəsmi səfərdə olmuşdur.

Səfər zamanı E.Məmmədyarov ATƏT-in yeni təyin olunmuş Baş Katibi Perrin de Brişambo ilə görüş keçirmişdir. Görüşdə Azərbaycanla ATƏT arasında əməkdaşlıq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanda iqtisadi və siyasi islahatlar, demokratikləşdirmə prosesi barədə ətraflı məlumat verilmiş, ATƏT-də keçiriləcək bu təşkilatın strukturu, inkişafı və gələcək fəaliyyəti üzrə təsisatlar haqqında fikir mübadiləsi aparılmışdır.

Sonra nazir E.Məmmədyarov ATƏT-in Daimi Şurasının xüsusi plenar iclasında çıxış etdi. Çıxış zamanı nazir ATƏT-in hazırkı dövrdə rolu və inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş danışıqlar prosesi, Azərbaycanın siyasi, iqtisadi və sosial inkişafı, Azərbaycan hökumətinin bu istiqamətdə, və eləcə də hüquq sahəsində həyata keçirdiyi islahatlar, qarşıdan gələn parlament seçkilərinə hazırlıq prosesi məsələlərinə toxundu. Eyni zamanda Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı, üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi və ölkəmiz qarşısında duran vəzifələr nazir tərəfindən bir daha vurğulanmışdır.

Çıxışdan sonra ATƏT-in üzv dövlətlərinin nümayəndə heyətləri: Birləşmiş Krallıq Avropa İttifaqı adından, ABŞ, Rusiya Federasiyası, Ermənistan, Türkiyə, Norveç, Ukrayna (Gürcüstan, Ukrayna və Moldova adından) çıxış etdilər. Daimi Şuranın iclasından sonra nazir Fransa, ABŞ, RF, Türkiyə və Kiprin ATƏT-dəki daimi nümayəndələri ilə ikitərəfli görüşlər keçirtmişdir.

Səfər proqramı çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Avstriyanın İqtisadiyyat Palatasının vitse-prezidenti Rixard Şentslə görüş keçirmişdir. Görüş zamanı Azərbaycan-Avstriya arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə fikir mübadiləsi aparılmışdır. Qeyd olunmuşdur ki, hər iki ölkənin bu sahədə imkanlarından daha geniş istifadə edilməlidir.

Görüşdən sonra nazir Avstriyada akkreditə olunmuş diplomatik korpus, Avstriyanın siyasi xadimləri, iş adamları, jurnalistlər və Avstriyadakı Azərbaycan icmasının nümayəndələri qarşısında "Azərbaycan müasir dövrdə" mövzusunda çıxış etdi. Çıxış zamanı Azərbaycanın siyasi və iqtisadi inkişafı, əldə olunan nailiyyətlər, Azərbaycanın digər ölkələrlə iqtisadi əlaqələri, bu istiqamətdə ölkəmizin imkanları haqqında ətraflı məlumat verilmişdir. Çıxışdan sonra nazir E.Məmmədyarov iştirakçıların çoxsaylı suallarını cavablandırmışdır.

Sentyabrın 7-də nazir E.Məmmədyarov Avstriya Prezidenti Haynts Fişer tərəfindən qəbul edildi. Görüş zamanı nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avstriya Prezidentinə ünvanlandığı salamları çatdırdı. Sonra nazir Azərbaycan-Avstriya münasibətlərinin getdikcə inkişaf etdiyini, son vaxtlar müxtəlif sahələr üzrə yüksək səviyyəli dövlət məmurlarının qarşılıqlı rəsmi səfərlərinin artmasının buna bariz nümunə olduğunu bildirdi. Bu əlaqələrin daha yüksək səviyyəyə qaldırılması məqsədilə iki ölkə prezidentləri səviyyəsində səfərlərin həyata keçirilməsinin zəruriliyini vurğuladı və 2006-cı ildə Avstriya Prezidentinin Azərbaycana rəsmi səfər edəcəyinə ümid etdiyini bildirdi. Avstriya Prezidenti dəvətə görə təşəkkür edərək, səfərin dəqiq tarixlərinin diplomatik kanallar vasitəsilə dəqiqləşdiriləcəyini qeyd etdi. Görüşdə nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinin hazırkı vəziyyəti haqqında və Azərbaycanın bu prosesə dair mövqeyi ilə bağlı ətraflı məlumat verdi. Səfər proqramına uyğun olaraq Azərbaycan xarici işlər nazirini Avstriya Respublikası parlamentinin sədri Andreas Kol qəbul etmişdir.

Nazir Azərbaycan və Avstriya arasında mövcud olan əməkdaşlığa toxunaraq bu əlaqələrin ölkələrimizin Parlamentləri arasında da inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və regional vəziyyət barədə fikir mübadiləsi aparıldı.

Kol Avstriya parlamenti haqqında məlumat verərək onun iki palatadan, Milli Şuradan və Federal Şuradan ibarət olduğunu bildirmişdir. Milli Şurada 183, Federal Şurada isə 62 deputatın fəaliyyət göstərdiyini bildirən A.Kol parlamentdə 4 siyasi partiyaları təmsil edən fraksiyalar haqqında da məlumat vermişdir.

Daha sonra E.Məmmədyarov və Avstriyanın Federal xarici işlər naziri xanım Ursula Plassnik arasında danışıqlar olmuşdur. Azərbaycan Respublikasının XİN-in başçısı həmkarını Azərbaycan və Avstriya arasında mövcud olan ikitərəfli münasibətlərin siyasi, iqtisadi və humanitar aspektləri, bu münasibətlərin daha da inkişaf etdirilməsi yolları, qloballaşma dövründə Azərbaycan xarici siyasətinin prioritetləri, hazırkı ölkədaxili vəziyyət və parlament seçkilərinə hazırlıq işləri haqqında məlumatlandırdı.

Nazir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesinə dair son vəziyyət barədə həmkarına məlumat verərək, bu kontekstdə beynəlxalq təşkilatların, ilk növbədə BMT, ATƏT, Aİ və AŞ-nın münaqişənin nizamlanmasında səylərinin artırılmasının vacibliyini bildirdi. Eyni zamanda o, Cənubi Qafqaz bölgəsində irimiqyaslı qaz, neft və nəqliyyat layihələrinin həyata keçirilmə prosesi haqqında danışdı.

İki ölkənin xarici işlər nazirləri Avstriyanın Avropa İttifaqına 2006-cı ilin birinci yarısında sədrliyini nəzərə alaraq Azərbaycanın Avropa İttifaqının qonşuluq siyasətində iştirakı, xüsusilə Azərbaycan ilə Aİ arasında əməkdaşlıq üzrə fəaliyyət planının hazırlanması və qəbul edilməsi perspektivlərini müzakirə etmişlər.

Görüşün sonunda nazir E.Məmmədyarov həmkarını Azərbaycana dəvət etdi.

Görüşdən sonra hər iki nazirin iştirakı ilə birgə mətbuat konfransı keçirildi. Konfransdan sonra Avstriyanın Federal xarici işlər naziri adından rəsmi ziyafət verildi.

Sonra nazir BMT-nin Vyanada yerləşən Nüvə Sınaqlarının hərtərəfli Qadağan edilməsi haqqında Müqavilə Təşkilatının (NSHQMT) Hazırlıq Komissiyasının icraçı katibi Tibor Tot ilə görüşdü. Görüşün əvvəlində bu təşkilatın Hazırlıq Komissiyasının Müvəqqəti Texniki Katibliyinin nəzdində fəaliyyət göstərən Beynəlxalq İnformasiya Mərkəzinin fəaliyyətinə həsr olunmuş təqdimat verildi. Görüş zamanı beynəlxalq aləmdə nüvə sınaqlarının hərtərəfli qadağan edilməsi ilə bağlı gedən proseslərə Azərbaycanın töhfəsi barədə icraçı katibə ətraflı məlumat verən nazir ölkəmizin

NSHQMT-nın üzvləri olan digər dövlətlər və Müvəqqəti Texniki Katibliyi ilə həyata keçirdiyi əməkdaşlıq və bu əməkdaşlığın gələcəkdə daha da inkişaf etdirilməsi imkanlarını müzakirə etdi. İcraçı katib təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələri və əməkdaşlığı "nümunəvi" kimi qiymətləndirərək bu əlaqələrin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirdi.

E.Məmmədyarov Avstriyanın tanınmış tarixçi-publisisti Erix Fayqlı qəbul etdi. Nazir Azərbaycan haqqında həqiqətləri yazdığına və Azərbaycanın düzgün mövqeyini müdafiə etdiyinə görə təşəkkür edərək onun yeni yaradıcılıq planı ilə maraqlanmışdır.

E.Fayql öz yaradıcılıq fəaliyyəti barədə məlumat verərək, cari ildə Azərbaycanda səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevlə görüşünü daim xoş təəssüratla xatırladığını bildirdi.

Nazir Avstriyada və Slovakiyada yaşayan soydaşlarımızla da görüşmüşdür.

Səfər çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri E.Məmmədyarov Avstriyanın nüfuzlu "APA" (Avstriya Mətbuat Agentliyi) məlumat agentliyinə və Yaponiyanın "Sekai Nippo" qəzetinin müxbirinə onun xahişi ilə eksklyuziv müsahibə verdi.

**XİN-in Mətbuat Mərkəzinin**
**08.09.05 tarixli məlumatı**

## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ ELMAR MƏMMƏDYAROVUN GÖRÜŞLƏRİ

| | |
|---|---|
| **1 iyul -** | "Aqo" monitorinq qrupunun nümayəndə heyəti ilə görüş |
| **1 iyul -** | Misir Ərəb Respublikasının MDB və yeni müstəqil ölkələrlə texniki əməkdaşlıq Fondunun Baş katibi Əli Cəlal Bəsyuni ilə görüş |
| **5 iyul -** | İsrailin Azərbaycan Respublikasında səfiri Eytan Naye ilə ölkəmizdə səlahiyyət müddəti başa çatması ilə əlaqədar görüş |
| **7 iyul -** | Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **8 iyul -** | Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Meri Vernts ilə görüş |
| **11 iyul -** | ATƏT-in Minsk qrupunun həmsədrləri – səfirlər Stiven Mənn, Yuri Merzlyakov və Bernar Fasye ilə görüş |
| **13 iyul -** | BMT-nin islahatlar üzrə xüsusi elçisi, Yaponiyanın ölkəmizdəki sabiq səfiri Toşiyuki Fucivara ilə görüş |
| **13 iyul -** | Amerika Milli Demokratiya İnstitutunun Sədri Madlen Olbraytın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **15 iyul -** | ABŞ-ın Nyu-Hempşir ştatının keçmiş qubernatoru, Ata Corc Buşun prezidentliyi dövründə Ağ ev administrasiyasının rəhbəri olmuş Con Sunun ilə görüş |
| **15 iyul -** | ABŞ-ın Brukinqs İnstitutunun analitiki Fiona Hill ilə görüş |
| **18 iyul -** | ATƏT-in kütləvi informasiya vasitələrinin azadlığı üzrə nümayəndəsi Miklos Haraşti ilə görüş |
| **21 iyul -** | Türkiyə Respublikasının müdafiə naziri Vecdi Gönülün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **27 iyul -** | ABŞ dövlət katibinin qlobal məsələlər üzrə müavini xanım Paula Dobryanskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **29 iyul -** | Ukraynanın Azərbaycan Respublikasındakı səfiri Anatoli Yurçenko ilə görüş |
| **12 avqust -** | İsrailin Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Artur Lenkin etimadnaməsinin surətinin qəbul edilməsi |
| **13 avqust -** | Almaniya Federativ Respublikası Federal Kəşfiyyat Xidmətinin rəhbəri Auqust Hanninqin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **15 avqust -** | İsveçin baş nazirinin ofisini təmsil edən dövlət katibi Lars Danielsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **18 avqust -** | Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı daimi beynəlxalq katibliyinin baş katibi Tedo Caparidze ilə görüş |
| **19 avqust -** | Polşanın Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Kşiştov |

| | |
|---|---|
| | Krayevskinin etimadnaməsinin surətinin qəbul edilməsi |
| **30 avqust -** | Yəmənin Azərbaycan Respublikasında səfiri Əhməd Hüseyn Əl-Başa ilə ölkəmizdə səlahiyyət müddətinin başa çatması ilə əlaqədar görüş |
| **1 sentyabr -** | Norveç Xarici İşlər Nazirliyinin dövlət katibi Kim Traavikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş |
| **2 sentyabr -** | İtaliyanın Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Can Luici Maşa ilə görüş |
| **5 sentyabr -** | Avropa Şurasının baş katibi Terri Devisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **5 sentyabr -** | ATƏT-in hazırkı sədri, Sloveniyanın xarici işlər naziri Dimitri Rupelin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **9 sentyabr -** | Beynəlxalq Böhran Qrupunun (International Crisis Group) Avropa üzrə vitse-prezidenti Alan Deletro və Qafqaz üzrə nümayəndəsi Sabin Frizer ilə görüş |
| **22 sentyabr-** | Küveyt-Azərbaycan Parlamentlərarası dostluq qrupunun sədri Əli Hamuud Mənsur əl Həcrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **22 sentyabr-** | Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfiri Çjan Siyun ilə görüş |
| **28 sentyabr-** | Birləşmiş Ərəb Əmirlikləri mədəniyyət və informasiya nazirinin müavini Saqr Gubəşin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş |
| **30 sentyabr-** | ATƏT-in İnsan Hüquqları və Demokratik Təsisatlar Bürosunun Azərbaycan Respublikasında keçiriləcək Parlament seçkiləri üzrə müşahidə missiyasının rəhbəri səfir Gert Arens ilə görüş |


“Aqo” monitorinq qrupunun nümayəndə heyəti ilə görüş


İsrailin ölkəmizdə diplomatik fəaliyyəti başa çatmış səfiri Eytan Naye ilə görüş


Beynəlxalq Böhran Qrupunun (International Crisis Group) Avropa üzrə vitse-prezidenti Alan Deletro və Qafqaz üzrə nümayəndəsi Sabin Frizer ilə görüş


İsrailin Azərbaycana yeni təyin olunmuş səfiri Artur Lenkinin etimadnaməsinin surətinin qəbul edilməsi


Türkiyə Respublikasının müdafiə naziri Vecdi Gönülün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş


Avropa Şurasının baş katibi Terri Devisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş


Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Çjan Siyun ilə görüş


Amerika Milli Demokratiya İnstitutunun Sədri Madlen Olbraytın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin “Star” televiziyasının siyasi icmalçısı Ardan Zentürkə müsahibəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Türkiyənin nüfuzlu “Nöqtə” həftəlik ictimai-siyasi jurnalının baş redaktoru, “Star” qəzetinin köşə yazarı və “Star” televiziya kanalının siyasi icmalçısı Ardan Zentürkə müsahibə vermişdir.

**Jurnalist:** Gördüyümüz bu meydan haqqında çox danışmayacağam, bura Bakının məşhur Azadlıq meydanıdır. Azərbaycan türk millətinin müstəqillik alovunu ilk yandırdığı meydandır. Burada gördüyümüz bayraq əbəs yerə dalğalanmır, orada əvvəllər Leninin heykəli vardı. Amma aşağıdakı tribunada Azərbaycanın 1918-ci ildə milli cümhuriyyətin bayrağı olaraq qəbul edilmiş bugünkü milli bayrağı qaldırıldı. Bunları haradan bilirəm? Mən o anlarda burada idim.

İndi isə Azərbaycanın paytaxtı Bakı inanılmaz bir strateji paytaxt kimi qiymətləndirilir və bütün dünyanın gözü yenə bu torpaqda, bu paytaxtdadır. 16 il əvvəl burada müstəqillik uğrunda mübarizə aparılırdı, 16 il sonra böyük bir strategiyadan danışılır. Bu, böyük bir uğurdur. Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətimizə bu uğurların tarixindən başlamağı vacib bildim.

**İlham Əliyev:** Bu, Azərbaycan tarixində çox müstəsna hadisə idi. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkənin gələcəyi çox da aydın deyildi. Çünki əsil müstəqillik sadəcə olaraq, dövlət atributlarının mövcudluğu deyildir. Bayraq, himn - təbii ki, bunlar atributdur. Əsil müstəqillik isə odur ki, ölkə öz siyasətini müstəqil şəkildə apara bilsin. Azərbaycanın o vaxtkı durumu çox çətin idi. Çox böyük problemlər mövcud idi. Ölkədə iqtisadi böhran var idi. Xaricdən təzyiqlər, daxildə çəkişmələr, sui-qəsdlər, çevriliş cəhdləri vardı. Biz bütün bunları yaşadıq və sizə açıq deyə bilərəm ki, mən tam əminəm, yalnız Heydər Əliyevin qətiyyəti, onun müdrikliyi, siyasəti Azərbaycanı o böyük bəlalardan qurtardı və bu gün ölkəmiz çox inamla inkişaf edir. Bölgədəki mövqelərimiz güclənir. İqtisadi potensialımız artır. Ölkədə gedən islahatlar öz nəticələrini verməkdədir və hər gün, hər an Azərbaycan daha da möhkəm olur. Bizim müstəqilliyimiz daha da güclənir və əlbəttə ki, bu, bizim üçün böyük xoşbəxtlikdir, sevincdir.

**Jurnalist:** Hörmətli Heydər Əliyev lap vaxtında hakimiyyətə qayıtdı, bundan sonra baş verənləri biz Türkiyədə yaxından izlədik. Hörmətli Heydər Əliyev hansı strategiya ilə bu müstəqilliyi möhkəmləndirdi, nəyə önəm verdi? Əsas məqamları bilmək istərdim.

**İlham Əliyev:** Zənn edirəm ki, müxtəlif amillər rol oynadı. Amma ilk başlanğıcda təbii ki, sabitliyin bərpa olunması başlıca şərt idi. Çünki sabitlik olmayan yerdə inkişafdan söhbət açmaq mümkün deyildir. Burada o vaxt fəaliyyət göstərən qeyri-qanuni silahlı birləşmələr tərksilah edildi. Ondan sonra hakimiyyət uğrunda mübarizə aparan qüvvələr də zərərsizləşdirildi və sabitlik yarandı. Ondan sonra inkişaf başladı. Əgər biz iqtisadi göstəricilərə nəzər salsaq görərik ki, Azərbaycanda inkişaf 1996-cı ildən sonra başladı. 1996-cı ilə qədər bir tənəzzül var idi. 1996-cı ildə ən təhlükə törədən amillər ortadan götürüləndən sonra ölkə, elə bil ki, nəfəs aldı və inkişaf etməyə başladı.

**Jurnalist:** Azərbaycan xüsusilə Qafqaz bölgəsində getdikcə artan strateji əhəmiyyətə malikdir. Bunu hamı yazır, deyir və biz də bilirik. Sizcə, bu strateji əhəmiyyətin arxasında sadəcə neftmi var?

**İlham Əliyev:** Zənn etmirəm ki, sadəcə neft olsun. Çünki neft başqa yerlərdə də var, başqa ölkələrdə də var. Azərbaycanın mövqeyi, Azərbaycanın bölgədəki artan potensialı əlbəttə ki, onu bu bölgədə əhəmiyyətli ölkəyə çevirir. Burada həm insan potensialı çox güclüdür, həm də qonşu dövlətlərlə münasibətlərimiz, Avropa ilə, Avratlantik məkanı ilə sıx işbirliyimiz, təbii ki, bizim önəmimizi artırdı. Azərbaycan anti-terror koalisiyasında çox fəal bir ölkədir. Bizim əsgərlərimiz dünyanın müxtəlif yerlərində sülhməramlı funksiyalarını yerinə yetirirlər. Əlbəttə ki, Azərbaycan ərazisindən keçən nəqliyyat, enerji dəhlizləri və digər infra-strukturun mövcudluğu bizim respublikamızı bölgədə çox önəmli ölkəyə çevirir.

**Jurnalist:** Bu günlərdə bölgə baxımından iki mühüm ölkənin liderləri olaraq Siz və hörmətli Baş nazir Rəcəb Tayyib Ərdoğan görüşdünüz. Azərbaycan xüsusilə Kipr türkləri baxımından

çox mühüm bir mövqe açıqladı. Bu, Türkiyənin israrlı tələbi ilə oldu, yoxsa qardaş bir diyarın probleminə şərik olmaq arzusundan irəli gəldi?

**İlham Əliyev:** Xeyr, xeyr. Bu, təbii duyğularımızdır. Türkiyə və Azərbaycan iki qardaş ölkədir. Hörmətli Baş nazir burada olarkən mən öz çıxışımda da söylədim ki, dünyada başqa iki ölkə yoxdur ki, bir-birinə belə sıx bağlı olsun, bir-birinə belə yaxın olsun. Ona görə Kipr məsələsində biz daim Türkiyənin yanındayıq. Mən Türkiyəyə rəsmi səfər etdiyim zaman, hələ bir il bundan öncə bu məsələ ilə bağlı açıq bəyan etdim ki, Azərbaycan ön sıralarda olacaqdır. İndi zaman yetişdi və biz gərək bu ön sıralarda duraq. Çox önəmli addımlar atılmaqdadır. Artıq bütün təlimatlar verilibdir. Bu yaxınlarda birbaşa uçuşlar başlanacaq, bizim şirkətlərin ofisləri açılacaqdır. Bu gün təlimat verdim ki, bizim işçi heyət – həm dövlət rəsmiləri, həm də özəl sektorun üzvləri bu yaxınlarda Kiprə səfər etsinlər və bütün əlaqələr mövcud olsun. Yəni Kipr türklərinin təcrid edilmiş vəziyyətdən çıxması üçün biz ön sırada olmalıyıq.

**Jurnalist:** Ön sırada olmalısınız. Çünki xatırladığımız kimi, Azərbaycanın müstəqilliyinin tanınmasında da Türkiyə ön sırada idi.

**İlham Əliyev:** Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir.

**Jurnalist:** Mən strateji tərəfdaşlıq ifadəsindən çox istifadə etmək istəmirəm. Sizcə, bu qardaşlıq qarşıdakı illərdə bölgəyə necə təsir edəcəkdir?

**İlham Əliyev:** Türkiyə ilə Azərbaycan demək olar ki, bütün beynəlxalq problemlərlə bağlı birgə hərəkət edirlər.

Bizim xalqımızın ümummilli lideri, öndərimiz Heydər Əliyevin bu məşhur kəlamı var: Biz bir millət, iki dövlətik. Bu prinsiplər bizim üçün çox əzizdir və öz siyasətimizi bunun üzərində qururuq. Əlbəttə ki, strateji maraqlar, mənafelər də önəmlidir, ancaq bunun təməlində də ürəkdən ürəyə gedən yollar durur. Bu gün bizim strateji işbirliyimiz bölgədə gedən proseslərə çox güclü təsir göstərir. Bizim birgə həyata keçirdiyimiz böyük layihələr - Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti, ondan sonra gələcək Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu xətti – bütün bunlar bölgədə tamamilə yeni bir şərait yaradır.

Bu mərhələdə Türkiyənin və Azərbaycanın bölgədəki çəkisi artmaqdadır. Bizim iştirakımız olmadan burada heç bir layihə həyata keçirilə bilməz. Heç bir ciddi məsələ - nə iqtisadi, nə siyasi, nə də başqa məsələ bizim iştirakımız olmadan həll edilə bilməz.

**Jurnalist:** Türkiyə və Azərbaycanın iştirakı olmadan...

**İlham Əliyev:** Bəli. Türkiyə və Azərbaycanın. Ona görə bizim birliyimiz, əlbəttə ki, xalqlarımızın tələbidir. Xalqlar bunu tələb edirlər və biz, bu gün xalqlara rəhbərlik edən insanlar da eyni fikirdəyik. Amma eyni zamanda, strateji nöqteyi-nəzərdən gələcəkdə türk dünyasının möhkəmlənməsi işində bu, başlıca şərtdir.

**Jurnalist:** Bu əməkdaşlıq, qardaşlıq, bir az əvvəl qeyd etdiyiniz mənzərə çərçivəsində Qafqazda həlledici rol oynayacaq bu münasibətlər çərçivəsində baxdıqda Dağlıq Qarabağdakı problemin həllinin gələcəyini necə görürsünüz?

**İlham Əliyev:** Mən hiss edirəm və görürəm ki, dünyada gedən proseslər, qloballaşma siyasəti, Avropanın genişlənməsi, dünyada gedən demokratikləşmə prosesləri bu məsələnin Azərbaycanın xeyrinə həll olunmasına gətirib çıxaracaqdır. Çünki bu proseslər bizim xeyrimizədir. Əlavə etsək ki, Azərbaycanın iqtisadi potensialı artır, hərbi potensial artır və Ermənistanla müqayisədə Azərbaycan daha çox inkişaf etmiş bir ölkədir, sabah bu fərq, bu uçurum daha da böyüyəcək, mən şübhə etmirəm ki, biz öz torpaqlarımızı işğaldan azad edəcəyik. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Biz məsələnin beynəlxalq hüquq əsasında həll olunmasını istəyirik və bunda təkid edirik. Haqq-ədalət bizim tərəfimizdədir. Dünyada gedən, bölgədə gedən proseslər bizə əl verir. Hərbi gücümüz möhkəmlənibdir. Ona görə mən düşünürəm ki, əgər Ermənistan rəhbərləri daha konstruktiv mövqe tutarsa və işğal olunmuş torpaqlardan qoşunları qeyd-şərtsiz çıxararsa, bu, onların marağına cavab verər.

**Jurnalist:** Burada bir az "şeytana vəkillik" etmək istəyirəm. Nədənsə, Azərbaycan ilə Türkiyə beynəlxalq səviyyədə haqlı olduqları bəzi məsələləri dünyaya tam çatdıra bilmirlər. Misal üçün, biz Kipr məsələsini illər boyu beynəlxalq ictimaiyyətə çatdıra bilmədik. Siz, torpaqlarınız işğal altında ikən, gedib dərdinizi dünyaya çatdırmaq məcburiyyətində qaldınız. Cənab Prezident, nə üçün məsələ türklərə gələndə ədalət prinsipi bir az yavaş işləyir?

**İlham Əliyev:** Mən sizinlə tamamilə razıyam. Amma hesab edirəm ki, bu bizim ləng hərəkətimizdən, yaxud da məsələni az

anlatmağımızdan irəli gəlmir. Biz on ildən artıqdır ki, həqiqəti dünya ictimaiyyəti qarşısına qoymuşuq, fəqət bu günə qədər ikili standartlar mövcuddur. Türkiyənin Avropa Birliyinə daxil olması məsələsi ilə bağlı vəziyyət də ikili standartlar siyasətidir. Məsələ onda deyil ki, biz nəyisə isbat edə bilməmişik, kiməsə anlada bilməmişik. Məsələ ondadır ki, yanaşma fərqlidir.

**Jurnalist:** Sanki bir riyakarlıq var...

**İlham Əliyev:** Riyakarlıq var.

**Jurnalist:** Məsələn, mən Sizin əsas probleminizdən çıxış edərək soruşmaq istəyirəm. Bilirsiniz ki, Azərbaycan torpaqlarının işğalına görə Türkiyə Ermənistan ilə sərhədi bağlayıbdır. Avropa Birliyi bu işğala son qoyulması üçün ermənilərə heç bir təzyiq etmir, amma Türkiyəni təkidlə sərhədi açmağa çağırır. Siz bir Prezident olaraq bunu necə şərh edə bilərsiniz?

**İlham Əliyev:** Bu, ədalətsizliyin təzahürüdür, böyük bir eybəcərlikdir, haqsızlıqdır. Amma bu, reallıqdır. Biz bu reallığı inkar etsək də, öz mənfi münasibətimizi bildirsək də, onu qəbul etməliyik, çünki başqa yol yoxdur. Bu ədalətsiz bir dünyadır və belə yanaşma bunu bir daha göstərir. Ona görə bizim gücümüz birliyimizdədir. Biz gərək güclü olaq, gərək birləşək ki, öz istədiyimizə nail olaq. Baxın, on ildən artıqdır ki, Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlayır və bəzi qüvvələr bizə deyir ki, gedin ermənilərlə anlaşın. Biz necə onlarla anlaşaq? Onlar torpaqlarımızdan çıxmaq istəmir, deyirlər ki, Dağlıq Qarabağa müstəqillik verin. Biz onu heç vaxt verə bilmərik. Çünki Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və onun Azərbaycandan ayrılması heç vaxt mümkün ola bilməz.

Amma mən sizə misal gətirim. Gürcüstanda buna bənzər iki münaqişə var. Abxaziya və Osetiya münaqişələri. İkisində də eyni hərəkətlər baş vermişdir - separatizm, ərazi bütövlüyünün pozulması, yüz minlərlə qaçqınların yaranması və nəticədə ölkənin suverenliyinin pozulması. Gürcüstanın məsələlərində beynəlxalq təşkilatların mövqeyi birmənalıdır. Moldovada Dnestryanı münaqişə var, eyni durumdur. Amma Qarabağa gəldikdə başqadır. Nəyə görə? Erməni lobbisinin fəaliyyətidir. Erməni lobbisinin və onun əlinin altında olan bəzi riyakar siyasətçilərin mövqeyidir. Bu haqsızlığı görəndə, əlbəttə ki, bizdə çox böyük etiraz hissi oyanır.

**Jurnalist:** Türkiyədəki psixologiyanın eynidir.

**İlham Əliyev:** Əlbəttə, biz nə edə bilərik ki, bu ədalətsizliyə son qoyaq? Gərək birlikdə güclənək, birlikdə möhkəmlənək.

**Jurnalist:** Cənab Prezident, sözünüzü kəsdiyim üçün üzr istəyirəm. Bildiyimə görə, 11 ildir atəşkəs rejimi var. Bayaq bir məsələni vurğuladınız, Azərbaycanın qüvvətlənəcəyini dediniz. Sizcə, Ermənistan bu prosesdə daim problem yaradarsa, Sizin rəhbərliyiniz və Azərbaycan xalqı münaqişəni müharibə yolu ilə birdəfəlik həll etməyə cəhd göstərə bilərmi?

**İlham Əliyev:** Mən ümid edirəm ki, buna ehtiyac qalmaz. Çünki müharibə heç kimə xeyir gətirməz. Müharibə böyük bir fəlakətdir, humanitar fəlakətdir. Biz müharibəni yaşamışıq, istəmirik ki, yenidən qan tökülsün, insanlar həlak olsunlar. Ona görə bizim bütün səylərimiz sülh yoluna yönəldilibdir. Biz istəyirik ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Amma o da aydındır ki, Azərbaycan xalqının səbri artıq tükənməkdədir. Nə qədər gözləməliyik, nə qədər bu danışıqları aparmalıyıq?! Bu gün danışıqların aparılmasına lüzum var, çünki ümidlər var. Yəni indi müəyyən məsələlər müzakirə olunur və ümidlər var. Əgər o ümidlər artıq mövcud olmasa, onda bölgədə yeni bir vəziyyət yaranacaqdır. O zaman Azərbaycan öz siyasətini yenidən müəyyən etməlidir və biz Azərbaycan xalqının tələbinə uyğun olaraq, istənilən yolu seçə bilərik. Hər halda, biz torpaqlarımızın itirilməsi ilə barışmaq fikrində deyilik.

**Jurnalist:** Hörmətli Heydər Əliyevin vaxtında Azərbaycan müstəqilliyini möhkəmləndirdi. Siz, cavan bir dövlət başçısısınız, qarşıdakı seçkilərə görə dünyanın gözü Sizdədir. Necə ki, atanız müstəqilliyi möhkəmləndirdi, indi hamı Sizdən Azərbaycanda demokratiyanın dərinləşməsinə yol açmanızı gözləyir. Belə bir planınız, islahatlar aparmaq fikriniz varmı?

**İlham Əliyev:** Təbii ki, var və mən əminəm ki, Azərbaycanın gələcəyi yalnız demokratik inkişaf sayəsində mümkündür. Ölkədə demokratik proseslər çox müsbət istiqamətdə gedir. Demokratik cəmiyyəti səciyyələndirən bütün amillər Azərbaycanda mövcuddur və əlbəttə ki, parlament seçkiləri bu işdə çox mühüm rol oynayacaqdır. Artıq hazırlıq işləri başlanıbdır. Seçkilərin şəffaf, ədalətli keçirilməsi üçün mənim tərəfimdən müvafiq Sərəncam imzalanmışdır. Əlavə tədbirlər də görülübdür. Mən şübhə etmirəm ki, seçkilər şəffaf keçiriləcək, Azərbaycan xalqının iradəsi

öz əksini tapacaqdır. Bizim gözəl potensialımız var. Siz bu məsələyə çox doğru toxundunuz. Azərbaycanın müstəqil dövlət kimi yaşamasının, inkişafının ilk illərində sabitliyin qorunması, müstəqilliyin möhkəmlənməsi və ölkənin böhrandan çıxarılması əsas məsələlər idi. Bu gün qarşımızda yeni tələblər durur: ölkəmizi texnoloji cəhətdən inkişaf etdirmək, dünya birliyinə inteqrasiya etmək və demokratiyanı möhkəmləndirmək. Biz bütün bu istiqamətlərdə işləyirik.

Mənim həmkarlarım dünən bir az zarafatla dedilər ki, biz cəmi 8 milyonuq, siz isə 70 milyonsunuz. Əgər biz bu sürətlə gediriksə, Avropa Birliyinə sizdən əvvəl daxil olacağıq.

**Jurnalist:** Hesab edirəm ki, bu proses Avropa ilə birlikdə aparılacaq işləri də əhatə edir. Elədirmi?

**İlham Əliyev:** Bəli, bizim Avropa Birliyi ilə çox gözəl münasibətlərimiz var. Biz müxtəlif layihələr üzərində çalışırıq. Eyni zamanda, Avropa Şurası ilə də yaxşı əməkdaşlıq edirik. Artıq dörd ildir ki, Azərbaycan Avropa Şurasının üzvüdür və üzərimizə götürdüyümüz bütün öhdəliklər yerinə yetirilir. Onu da bilirik ki, demokratiyanın inkişafı və yayılması iqtisadi cəhətdən güclü, yəni inkişaf etmiş ölkələrdə daha asan olur.

**Jurnalist:** Yəni, cənab Prezident, deyirsiniz ki, demokratiyanın dərinləşməsi Azərbaycanda sabitlik üçün təhlükə yaratmır, elədirmi?

**İlham Əliyev:** Qətiyyən yaratmır.

**Jurnalist:** Yəni kim gəlirsə gəlsin, seçilsin, hər şey normal proses çərçivəsində davam edəcəkdir.

**İlham Əliyev:** Bəli. Bizdə sistem bir az başqadır. Bizdə parlament seçkiləri yalnız parlamentə seçilmiş insanların gələcəyini müəyyən edir. Yəni hökumət oradan formalaşmır. Bizdə Prezident idarə üsulu var. Amma eyni zamanda bu seçkilər çox önəmlidir. Lakin onu da bilirik ki, iqtisadi cəhətdən çətinlik çəkən ölkələrdə demokratiya özünə çox yer tapa bilmir. Çünki əgər ölkə kasıbdırsa, çoxlu sosial problemlər varsa, insanları demokratiyaya aparmır. Ona görə iqtisadi inkişaf bizim üçün ön plandadır.

**Jurnalist:** Türk xalqı adından bir sual da verə bilərəmmi? Neftin bir barrelinin qiyməti 60 dolları keçdi. İstanbulda insanlarla bunun bizim iqtisadiyyatımıza təsiri haqqında danışırdıq. Qardaş Azərbaycan bizə nefti bir az ucuz verəcəkmi - deyə fikirləşirdik.

**İlham Əliyev:** Əlbəttə, biz çalışacağıq ki, hər iki ölkənin maraqları təmin olunsun. Mən sizə deyə bilərəm ki, bizim anlaşmalarda - neft anlaşmasında, xüsusilə qaz anlaşmasında çoxlu özəl məqamlar var. Türkiyəyə Azərbaycan qazı çox məqbul qiymətlərlə satılacaqdır. Biz hər an bir-birimizin dəstəyinə möhtacıq. Fərqi yoxdur, bu gün neftin qiyməti 60 dollardır, vaxtilə neftin qiyməti 8 dollar da olmuşdur. Bizim aramızda olan münasibətlərə bunun heç bir dəxli yoxdur. Əsas odur ki, bu səmimi münasibətlər, səmimi hisslər həm ölkəni idarə edən insanlarda var, həm də xalqlarda, bütün təbəqələrdə var. Bu münasibətlər xalqların məhəbbəti üzərində qurulub və əbədi yaşayacaqdır.

**"AzərTAC" 06.07.05**

## Azərbaycan Prezidenti İlham Əliyevin Finlandiyanın "Yulesradio" dövlət teleradio şirkətinin müxbirlərinə müsahibəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Prezident sarayında Finlandiyanın "Yulesradio" Dövlət Teleradio Şirkətinin müxbirlərinə müsahibə vermişdir.

**Jurnalist:** Cənab Prezident, Sizcə, Finlandiya-Azərbaycan biznes forumu ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsinə necə təsir göstərəcəkdir?

**İlham Əliyev:** Düşünürəm ki, bu, ölkələrimizin iqtisadi münasibətlərində mühüm hadisə olacaqdır. Təəssüf ki, bizim iqtisadi əlaqələrimiz hələlik o qədər də fəal inkişaf etmir, halbuki yaxşı imkanlar, yaxşı potensial var. Ölkəmiz iqtisadi baxımdan çox sürətlə inkişaf edir. Bu il iqtisadiyyatda artım 20 faizdən çox olacaqdır. Gələcəkdə bu sürət artacaqdır. İqtisadiyyatın yeni istiqamətləri, yeni sektorları yaranır. Son ilyarımda ölkəmizdə 300 min iş yeri yaradılmışdır. Ona görə də iqtisadi cəhətdən güclü ölkə kimi Azərbaycanın potensialı artacaqdır. Ölkələrimiz arasında çox möhkəm iqtisadi əlaqələrin yaranması üçün biz bu imkanlardan istifadə etmək istərdik. Finlandiya Prezidentinin ölkəmizə səfəri çərçivəsində keçirəcəyimiz biznes forumu, zənnimcə, ilk belə addım olacaqdır. İqtisadi əməkdaşlığa əməli surətdə başlamaqdan ötrü dövlət strukturlarının və özəl biznesin bir-birini tanıması, imkanları və potensialı öyrənməsi üçün yaxşı fürsət olacaqdır.

**Jurnalist:** Noyabrda sizdə parlamentə seçkilər keçiriləcəkdir. Siz seçkilərədək müxali-

fətdən nə kimi hərəkətlər gözləyirsiniz?

**İlham Əliyev:** Seçkilər ölkənin həyatında mühüm məqamdır. Düşünürəm ki, parlament seçkiləri çox uğurlu keçəcəkdir. Artıq iki aydır kampaniya başlayıb, proses çox müsbət gedir. Namizədlərin qeydiyyatı göstərdi ki, seçkilərə çox böyük maraq var. 2 mindən çox adam namizəd kimi qeydə alınıb, parlamentdə isə cəmi 125 yer var. Bu, onu göstərir ki, insanlar seçkilərin demokratik, ədalətli və şəffaf keçəcəyinə inanırlar. Beş il əvvəl parlament seçkilərində 400 namizəd vardı, indi isə onlar iki min nəfərdən çoxdur. Qeydiyyat prosesi çox uğurla keçdi və heç bir irad doğurmadı. Seçkiqabağı kampaniya prosesi də çox müsbət gedir, bütün kütləvi informasiya vasitələrində namizədlərin hamısına bərabər vaxt verilmişdir. Siyasi baxışlarından və platformasından, ümumiyyətlə, öz şəxsi potensialından asılı olmayaraq, deputatlığa hər bir namizəd həm pulsuz efirdə, həm də ödənişli efirdə bərabər imkanlara malikdir. Bir sözlə, əminəm ki, kampaniyanın ikinci mərhələsi də çox uğurlu keçəcəkdir.

O, artıq başlanmışdır. Ölkənin rayonlarında da təşviqat aparılır, bütün rayonlarda seçicilərlə binalarda, açıq meydanlarda görüşlər keçirmək üçün yerlər müəyyən edilmişdir. Problem yoxdur.

Bu başqa məsələdir ki, Azərbaycanda bəzi qüvvələr seçkilərdən vəziyyətin sabitliyini pozmaq üçün istifadə etmək istəyirlər. Bax, bu, çox həyəcan doğuran haldır və burada heç də hər şey hakim partiyadan və ya iqtidardan asılı deyildir. Biz bəzi radikal qüvvələrin bilərəkdən fitnəkarlığa, toqquşmalara getməyəcəklərinə təminat verə bilmərik. Buna qarşı qoya biləcəyimiz bir şey varsa, o da cəmiyyətin belə hallara çox mənfi münasibət göstərməsidir, habelə qanunsuz əməllərin qarşısını almaq üçün malik olduğumuz imkanlardır.

Azərbaycanda seçkiqabağı kampaniya aparmaq, öz deputatını və özünü təşviq etmək üçün hər cür şərait yaradılmışdır. Odur ki, şüurlu surətdə fitnələr törətməkdən məqsəd, əlbəttə, ölkədə ajiotaj yaratmaq və bununla da özlərinin hansısa niyyətlərinə nail olmağa çalışmaqdır. Ədalətli mübarizədə, açıq mübarizədə gərək çalışasan ki, insanlar sənə inansın və səs versinlər, bunu toqquşmalar yolu ilə etmək lazım deyildir.

**Jurnalist:** Eşitmişik ki, burada hansısa xırda toqquşmalar, qanunsuz mitinqlər olmuşdur və burada da Ukraynadakı kimi inqilab etmək istəyən qüvvələr var. Onlar bunu geniş miqyasda etməyə hazırlaşırlar, yoxsa bu, yalnız kiçik bir qrupdur?

**İlham Əliyev:** Bu, siyasi uğursuzların kiçik bir qrupudur. Onlar 1992-1993-cü illərdə Azərbaycana başçılıq etmiş, hakimiyyətdə olmuş və ölkəni dağıtmış insanlardır. Buna görə də onların hakimiyyəti cəmi bir il çəkdi. Bir ildən sonra insanlar dözmədi və onlar hakimiyyətdən uzaqlaşdırıldı. Artıq 12 ildir onlar müxalifətdədir və hakimiyyətə gəlməyə can atırlar, lakin cəhdləri uğursuzluqla nəticələnir. Onlar 1993-cü ildən 2003-cü llədək keçirilmiş bütün parlament və prezident seçkilərini uduzmuşlar. Biz ölkədəki vəziyyəti və imkanları real surətdə qiymətləndiririk. Aparılmış ictimai rəy sorğuları, o cümlədən mötəbər beynəlxalq təşkilatların keçirdikləri sorğular göstərir ki, Prezidentin və bizim hakim partiyanın dəstəklənməsinin səviyyəsi yüksəkdir. Ona görə də biz Gürcüstanda və Ukraynada baş verənlərin burada da olacağını gözləmirik. Bir də ona görə ki, ölkəmizdə sosial məsələlər uğurla həll edilir – son iki ildə bizdə əmək haqqı bir neçə dəfə qaldırılmışdır, pensiyalar artırılır, büdcə 2004-cü ildən 2006-cı llədək 2,5 dəfə artmışdır. Bu il əhalinin real gəlirləri 25 faiz, banklardakı əmanətləri 50 faiz artmışdır. Hər yerdə tikinti gedir, inkişaf var.

Dediyim kimi, son ilyarımda 300 min iş yeri yaradılmışdır. Bu, 8 milyon nəfər əhalisi olan ölkə üçün rekord rəqəmdir. Ona görə də belə şəraitdə müxalifətin iqtidar üçün problemlər yaratmağa böyük imkanları yoxdur. Onlar nə edə bilərlər – onlar qadağan olunmuş yerlərdə qanunsuz mitinq keçirə və bununla da hüquq mühafizə orqanlarını cavab hərəkətlərinə sövq edə bilərlər.

Azərbaycanda bütün seçkiqabağı kampaniyalarda – prezident seçkilərində də, parlament seçkilərində də - mitinqlər keçirilən bir neçə yer olmuşdur. Bunlar şəhərin iri meydanlarıdır. Mən də orada seçkiqabağı mitinqlər – həm parlament, həm prezident seçkiləri zamanı, həm də başqa vaxtlarda mitinqlər keçirmişəm. 1998-ci ildə də, 2000-ci ildə də, 2003-cü ildə də belə olmuşdur. Bu dəfə də belə olmuşdur – elə həmin meydanda biz öz mitinqimizi, müxalifət öz mitinqini keçirdi və bu, normal, qanuni idi, meriya da icazə vermişdi. İndi, müxalifət görəndə ki, heç bir problem yoxdur və onların mitinqlərinə getdikcə daha çox az adam gəlir, onlar şəhərin mərkəzində meydan tələb edirlər. Halbuki, bu

meydan sahəsinə görə onların mitinqlər keçirdiyi meydandan beş dəfə kiçikdir. Nə üçün bunu edirlər? Onlar başa düşürlər ki, Bakı şəhərinin hakimiyyət orqanları buna icazə verməyəcək, çünki orada hərəkət intensivdir, adamların çox olduğu yerdir, orada çoxlu yaşayış evləri, mağazalar var. Orada mitinqlər keçirmək mümkün deyildir. Onlar başa düşürlər ki, hakimiyyət icazə verəməyəcək, deməli, bu halda onlar mitinqi qanunsuz keçirəcəklər, hakimiyyət də bunun qarşısını alacaqdır. Bundan sonra onlar deyəcəklər ki, baxın, Azərbaycanda demokratiyanı boğurlar. Demək istəyirəm ki, bu, sırf fitnəkarlıqdır və biz ondan sığorta olunmamışıq.

Düşünürəm ki, buna çox mənfi yanaşan ölkə ictimaiyyəti, habelə Azərbaycanda artıq çox olan beynəlxalq müşahidəçilər bunu görürlər və adekvat qiymətləndirməlidirlər.

**Jurnalist:** Necə bilirsiniz, başqa ölkədən yardım alan qruplar varmı?

**İlham Əliyev:** Bu barədə danışmaq mənim üçün çətindir. Əlbəttə, bizdə müəyyən informasiya var, bu informasiya çox geniş, müxtəlif səpkilidir və müxtəlif mənbələrdəndir. Əlbəttə, belə halların olduğu barədə də siqnallar və informasiya var. Lakin mənim bununla məşğul olmaq üçün hələlik real arzum yoxdur. Heç nəyə, heç bir maliyyə yardımına baxmayaraq. Müxtəlif ölkələrdə elə qüvvələr var ki, onlar Azərbaycanın normal inkişaf etməsini, iqtisadi potensialının möhkəmlənməsini, Avropa strukturlarına inteqrasiya etməsini, müasir, demokratik dövlət olmasını istəmirlər. Bu qüvvələr Azərbaycanda sabitliyi pozmaq, Azərbaycanda yenidən qarmaqarışıqlığın, anarxiya və hərki-hərkiliyin hökm sürməsi üçün hər şey etməyə hazırdırlar. Mən buna yol verə bilmərəm. Mən təhlükəsizliyin, Konstitusiyanın təminatçısıyam. Mən xalq tərəfindən seçilmiş Prezidentəm. Ona görə də Azərbaycanda sabitliyin, qayda-qanunun və normal demokratik prosesin davam etməsi üçün hər şeyi edəcəyəm. Maliyyə cəhətdən vəziyyəti sarsıtmaq üçün göstərilən bütün cəhdlər isə əbəsdir. Azərbaycanda nə isə planlaşdıranlar başa düşməlidirlər ki, buna yol verməyəcəyik, biz normal siyasi prosesin tərəfdarıyıq və həyatımıza müdaxilə olunması ilə bağlı bütün məsələləri çox dəqiq şəkildə izləyirik.

**Jurnalist:** ATƏT Cənubi Qafqazda sabitliyin təmin olunmasında necə iştirak edə bilərdi?

**İlham Əliyev:** Cənubi Qafqazda qeyri-sabitliyin başlıca ocağı Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzüdür. Bu təcavüz nəticəsində ərazimizin 20 faizi erməni işğalı altındadır, etnik təmizləmə siyasəti aparılmış və 1 milyon azərbaycanlı öz torpağında qaçqın-köçkünə çevrilmişdir. Bu fakt BMT tərəfindən tanınmışdır. BMT dörd qətnamə qəbul edərək, erməni qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Bu faktı cari ilin yanvarında qətnamə qəbul etmiş Avropa Şurası tanımışdır. Qətnamədə deyilir ki, Ermənistan Azərbaycana qarşı təcavüz etmiş, etnik təmizləmə siyasəti aparmış, ərazimizi işğal etmişdir və bir milyon insan evsiz-eşiksiz qalmışdır.

Bu yaxınlarda ATƏT buraya faktaraşdırıcı qrup göndərmişdi. Bu qrup Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin kütləvi surətdə qanunsuz məskunlaşdırıldığını – minlərlə adamın qanunsuz olaraq məskunlaşdırıldığını aşkara çıxarmışdır. Bunun aşkar edilməsi müsbət faktdır. ATƏT münaqişənin həllində Ermənistanla Azərbaycan arasında vasitəçilik edən təşkilatdır. Ona görə də bu məsələdə ATƏT-in rolu həlledicidir, bu təşkilatdan çox şey asılıdır. Münaqişənin nizama salınması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərindən də çox şey asılıdır. Ümidvarıq ki, ATƏT və digər beynəlxalq təşkilatlar Ermənistanın ərazimizi 10 ildən çoxdur işğal altında saxlamasına və bunun cəzasız qalmasına çox sərt reaksiya verəcəklər. Təcavüzkara qarşı çox sərt sanksiyalar tətbiq olunmalıdır. Biz bu gün, XXI əsrdə mağara dövrünün - bir ölkənin digər ölkəyə qarşı təcavüzünün və onu işğal etməsinin cəzasız qaldığı dövrün ideologiyası ilə yaşaya bilmərik. Biz məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll etmək istəyirik. Lakin bunun mümkün olmadığını gördükdə, bizim başqa seçimimiz qalmır. Ona görə də Azərbaycanda hərbi xərclər artır, gələn il biz müdafiə xərclərini iki dəfə artıracağıq və bu, böyük məbləğ olacaqdır. Gələcəkdə isə müdafiə xərclərimiz Ermənistanın bütün büdcəsi qədər olacaqdır. Yəni, bizi belə tədbirlərə əl atmağa məcbur etmək lazım deyildir. Biz bunu istəmirik, biz Qafqazda sülh olmasını istəyirik, ölkəni həm iqtisadi, həm də siyasi cəhətdən normal inkişaf etdirmək istəyirik. Lakin biz işğalla razılaşa bilmərik. Ona görə də bu münaqişənin həllində başlıca rol ATƏT-ə və onun həmsədrlərinə məxsusdur. Zənnimcə, onlar bu məsələyə ədalətlə yanaşmalı və təcavüzkarı işğala son qoymağa məcbur etməlidirlər.

**Jurnalist:** İndi Siz Ermənistanla razılığa gəlməyə imkanlar olduğunu görürsünüzmü?

**İlham Əliyev:** Əlbəttə, imkanlar var və onlardan istifadə etmək çox asandır. Sadəcə olaraq, səy göstərmək və yalnız beynəlxalq hüquqa əsaslanmaq lazımdır. Hər bir ölkənin ərazi bütövlüyü beynəlxalq hüququn ayrılmaz tərkib elementidir. Biz tələb edirik ki, beynəlxalq hüquq normalarına riayət edilsin, Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən çıxsın, vətəndaşlarımız öz evlərinə, öz torpağına qayıtsınlar, Dağlıq Qarabağda yaşayan ermənilərə mövcud olan ən yüksək muxtariyyət verilsin. Bilirik ki, Avropada muxtariyyətin çox müsbət təcrübəsi var, müxtəlif ölkələrdə milli muxtariyyətlər, milli azlıqlar var və onlar normal surətdə yaşayırlar. Burada heç bir ixtira, kəşf yoxdur. Biz bu məsələdə dünyanın, Avropanın müsbət təcrübəsini əxz etməliyik. Amma Ermənistan deyəndə ki, Dağlıq Qarabağ erməniləri öz müqəddəratını təyin etməlidirlər, bu, dünya ictimaiyyətinin şüurlu surətdə aldadılması deməkdir. Çünki ermənilər bir millət kimi öz müqəddəratını təyin etmişlər – onların Ermənistan dövləti var. Onlar yaşadıqları hər yerdə öz müqəddəratını təyin etsələr, təsəvvür edin ki, nələr baş verər. Ermənilər isə Fransada, Amerikada, Rusiyada, Gürcüstanda – hər yerdə yaşayırlar. Yəni, onların yaşadıqları hər bir ölkədə erməni dövləti olmalıdır? Bu cəfəngiyyatdır. Ona görə də bu məsələnin normal, sivilizasiyalı həlli üçün, dünyada sivilizasiyalı davranış üçün Ermənistan başa düşməlidir ki, bu gün XXI əsrin məsələlərini mağara dövrünün ideologiyası ilə həll etmək olmaz. Onların mövqeyinin gələcəyi yoxdur. Çünki beynəlxalq hüquq bizim tərəfimizdədir, siyasi proseslər bizim tərəfimizdədir, iqtisadi potensial da bizim tərəfimizdədir və biz öz məqsədimizə nail olacağıq. Ona görə də məsələnin həlli çox sadədir – Ermənistan rəhbərliyi özündə təpər tapmalı və işğal edilmiş ərazilərdən çıxmalı, yaşayış üçün, o cümlədən də öz xalqı üçün normal şərait yaratmalıdır. Onda kommunikasiyalar, sərhədlər də açılacaq, yüklər ölkələrimizin əraziləri ilə daşınmağa başlayacaq və normal proses gedəcəkdir. Bu, çox asandır, amma hələlik qeyri-mümkün görünür. Lakin ümidvaram ki, biz bunun baş verəcəyi günü tezliklə görəcəyik.

**Jurnalist:** Azərbaycan ilə ABŞ arasında əməkdaşlığa dair planlar varmı?

**İlham Əliyev:** Bizim əməkdaşlığımız olduqca çoxşaxəlidir. Biz energetika sahəsində fəal əməkdaşlıq edirik və ABŞ hökumətinin dəstəyi ilə dünyada ən iri enerji layihəsini həyata keçiririk. İndi bu layihə Azərbaycanda gerçəkləşdirilir. Biz regionda təhlükəsizliyin təmin olunması məsələlərində, habelə, antiterror koalisiyasında fəal əməkdaşlıq edirik. Əməkdaşlığımızın daha bir istiqaməti ölkədə və regionda gedən siyasi prosesləri təkmilləşdirməkdən ibarətdir. Bütün istiqamətlərdə əməkdaşlığımız çox fəaldır və onun artıq böyük tarixi var. Azərbaycanın müstəqilliyə qovuşduğu vaxtdan, təxminən 1993-1994-cü illərdən əməkdaşlıq çox dinamik gedir. Biz bu səviyyədən çox məmnunuq.

**Jurnalist:** Siz hərbi bazalar haqqında danışıqlar aparırsınızmı?

**İlham Əliyev:** Yox, yox. Belə danışıqlar, planlar yoxdur. Mən bu mövzuda dəfələrlə danışmışam. Bunu Amerikanın rəsmi şəxsləri də demişlər. Belə planlar yoxdur. Ermənistandan fərqli olaraq, Azərbaycanda heç bir xarici baza yoxdur. Ermənistanda Rusiyanın hərbi bazası var, Ermənistanın sərhədini Rusiyanın sərhəd qoşunları qoruyurlar. Gürcüstanda da Rusiyanın bazası var. Lakin bu baza Gürcüstandan çıxarılır, Ermənistanda isə möhkəmləndirilir. Azərbaycanda heç bir baza yoxdur və biz bunun mümkünlüyünü nəzərdən keçirmirik. Bu, danışıqlar mövzusu deyildir. Bizim bütün ölkələrlə çox yaxşı münasibətlərimiz var.

**Jurnalist:** Deyirlər ki, korrupsiya ölkənizdə çox böyük problemdir. Siz bu təzahürlə necə mübarizə aparmaq fikrindəsiniz?

**İlham Əliyev:** Korrupsiya böyük bəladır, keçmiş Sovet İttifaqının bütün respublikalarını bürümüşdür. Nəzər salsaq, görərik ki, bu ölkələrin hamısında həmin problem çox aktualdır. Bunu yaşadığımız sistem – sosializm sistemi və planlı iqtisadiyyat sistemi, daim qıtlıq və bürokratiyanın olduğu sistem doğurmuşdur. Müstəqilliyin əldə edildiyi dövr Azərbaycanda böyük sarsıntılarla bağlı olmuşdur – işğal da, çox böyük sayda qaçqınlar-köçkünlər də, vətəndaş müharibəsi də, yoxsulluq da olmuşdur. Bütün bu amillər korrupsiya ilə mübarizənin daha səmərəli olmasına imkan verməmişdir. Çünki əhalinin əksər hissəsinin yoxsulluq içində yaşadığı, əmək haqqının çox az olduğu vaxtda korrupsiya ilə mübarizə aparmaq son dərəcə çətindir. Hər şey dövlət mülkiyyətində olduğu vaxtda da çətindir.

Ona görə də atdığımız ciddi əməli addım-

larla yanaşı, - məsələn, Azərbaycanda korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul edilmiş, korrupsiyaya qarşı mübarizə üzrə xüsusi idarə yaradılmış və o, bir çox korrupsiyaçıları üzə çıxarmış və onlar məsuliyyətə cəlb edilmiş və artıq həbsdədirlər, - iqtisadi islahatlar, özəlləşdirmə, özəl sektorun möhkəmlənməsi prosesi də əhəmiyyətlidir. O mənada ki, iqtisadiyyat məmurlardan, bürokratlardan asılı olmasın. Biz yalnız bu yolla səmərəli mübarizə apara bilərik. Çünki bir məmurun başqa bir məmurla əvəz edilməsindən heç nə çıxmaz. Bəlkə də müvəqqəti səmərə olar, lakin uzunmüddətli səmərə olmayacaqdır. Korrupsiyanın başlıca səbəbi bizim keçmişimizlə, totalitar sistemlə, əhalinin həyat səviyyəsinin aşağı olması, çox böyük sayda insanların yoxsulluq içində yaşaması ilə, habelə dövlət orqanlarının iqtisadiyyata təsiri ilə bağlıdır. Ona görə də biz müxtəlif istiqamətlərdə iş aparırıq.

Azərbaycanda özəlləşdirmə prosesi çox fəal gedir. Bizdə ümumi daxili məhsulun təxminən 75 faizi özəl sektorda istehsal edilir. Özəl sektorda korrupsiya yoxdur. Özəl müəssisədə korrupsiya yoxdur, aldatma yoxdur, oğurluq yoxdur, çünki o, şəxsi mülkiyyətdir. Biz daha tam özəlləşdirmə, dövlətsizləşdirmə və güclü orta sinif yaratmaq prosesinə nail olduqdan sonra korrupsiya, əlbəttə, kəskin surətdə azalacaqdır. Lakin, digər tərəfdən, heç kim – dünyanın heç bir ölkəsi korrupsiyaya tam qalib gələ bilməmişdir. Bəzi ölkələr daha böyük, bəzi ölkələr isə daha az müvəffəqiyyətə nail olmuşlar. Lakin korrupsiya elə bir xəstəlikdir ki, o, bütün cəmiyyətlərə, hətta ən inkişaf etmiş və ən demokratik cəmiyyətlərə də yoluxur.

**Jurnalist:** Daha bir sual. Azərbaycanı Finlandiyanın hansısa xüsusi texnologiyaları, məhsulları maraqlandırırmı?

**İlham Əliyev:** Bunu demək mənim üçün çətindir, çünki bunu biznes dairələri, yəqin ki, daha yaxşı bilir. Azərbaycanın dünya iqtisadiyyatının bir hissəsinə çevrildiyi, öz qapılarını sərmayələr və texnologiyalar üçün açdığı indiki vaxtda, əlbəttə ki, müxtəlif ölkələrin texnologiyaları və məhsulları üçün də qapılarını açmışdır.

Adambaşına düşən xarici sərmayələrin həcminə görə Azərbaycan regionda birinci yeri tutur – son 10 ildə Azərbaycana 25 milyard dollar sərmayə qoyulmuşdur. Adambaşına götürdükdə, bu, ən yüksək göstəricidir. Bizdə çox yaxşı sərmayə mühiti var, xarici sərmayələr qanunla çox güclü şəkildə qorunur. Ona görə də indiki halda Finlandiyadan sərmayə, yeni texnologiyalar cəlb edilməsi qarşılıqlı surətdə faydalı olardı. İqtisadiyyatın məhz hansı istiqamətində daha çox maraqlı olduğumuzu söyləmək indi mənim üçün çətindir. Düşünürəm ki, biznes forumu çərçivəsində bu barədə daha çox məlumat əldə edəcəyik.

**“AzərTAC” 28.09.05**

## Address by Mr. Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, at 568th (special) meeting of the OSCE Permanent Council

***Vienna, 6 September 2005***

Mr. Chairman,
Excellencies,
Ladies and Gentlemen,

It gives me a great pleasure to address the OSCE Permanent Council for the first time and I would like to thank the Slovenian Chairmanship and distinguished Ambassador Lenarcic personally for convening this special meeting.

Already thirty years have elapsed since the time the OSCE started its path as a consultative conference when the first successful pan-European attempt was made to formulate the principles of interstate relations. These principles are still valid and may be even more important today because they are being violated when one state occupies the territories of another state, awkwardly covering this by wrongly interpreted norms and principles of international law, and this is being tolerated by the international community.

The period after the end of the Cold War illuminated the need for the OSCE to be transformed into an organization capable of immediately and effectively responding to threats and challenges faced by its member states. Today enhancing the effectiveness of the OSCE is among the top priorities on the current OSCE agenda. The Republic of Azerbaijan has always been of most strongest supporters of the idea of strengthening the Organization and hopes that the implementation of this initiative will be conducive to making the OSCE a full-scale regional organization and increasing its role in achieving comprehensive security and stability in all over the OSCE area.

We believe that the major mission of the OSCE is and should be to protect norms and principles it advocates without constraints, double standards and geographical preferences, and to ensure the respect for them in interrelations of its member states. This is the quintessence of the OSCE, and it is our common task. This is also true about the humanitarian, economic and political dimensions of the OSCE. Azerbaijan is cautious about any disbalance or underestimation of any of the OSCE baskets, since all of them are unique and equally important.

Considering the OSCE development it is impossible to disregard the Paris Charter of 1990, as well as the Helsinki meeting of 1992 when the OSCE experienced its re-birth having obtained new members, including the states of the former Soviet Union. These states came into OSCE with their own problems and expectations. How successful we are today and how helpful the OSCE was?

Azerbaijan is one of the unique states belonging to both Western and Eastern civilizations and located on the crossroads of several cultures. This is the country of three major world religions, a country where representatives of many different nations enjoy peaceful and friendly co-existence alongside the major Azerbaijani nation. Obviously, the majority of the population profess Islam, nevertheless, our state is founded on the principle of secularism. In general, it should be noted that Azerbaijan is a state where the rights of every citizen is protected without discrimination. Yes, we acknowledge that there are some problems and shortcomings, but we tackle them seriously and decisively.

Mr. Chairman,

The Republic of Azerbaijan has gone through hardships and difficult tests towards its independence, facing aggression by Armenia, internal struggle for power and a threat of civil war, socio-economic consequences of the conflict with Armenia, when every eighth Azerbaijani became a refugee, transition problems and others. In spite of these difficulties Azerbaijan managed to stand firm. In the past years Azerbaijan has made great advances in building democratic institutions and free market economy. Establishment of stability and rule of law combined with steady economic development created a solid ground for democratic reforms and tackling outstanding social and economic problems. Today Azerbaijan is one of the fastest developing countries in the former Soviet Union.

Eytan Naye diplomatik fəaliyyəti dövründə ona göstərilmiş köməyə görə ölkəmizin rəhbərliyinə, eləcə də xalqımıza minnətdarlığını bildirmişdir.

Sonda səfir jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

**“AzərTAC” 04.08.05**

## Azərbaycanın ABŞ-dakı səfiri konqresmenləri ermənipərəst həmkarlarının saxtakarlığına uymamağa çağırır

ABŞ Konqresində erməni məsələləri üzrə işçi qrupun həmsədrləri, Nyu-Cersi ştatının təmsilçisi Frenk Pallone və Miçiqan ştatından Co Nollenberq Dağlıq Qarabağa yardımın artırılması üçün Prezident Buşa müraciət göndərməkdə bütün Konqres üzvlərinin dəstəyini istəmişdilər. Ermənipərəst konqresmenlər, həmişəki kimi, uydurmalarla həmkarlarını çaşdırmaq niyyətində idilər.

AzərTAC-ın xüsusi müxbiri xəbər verir ki, buna cavab olaraq, Azərbaycanın Vaşinqtondakı səfiri Hafiz Paşayev ABŞ Konqresinin bütün üzvlərinə məktub göndərmiş və Pallone-Nollenberq cütlüyünün əsil simasını ifşa etmişdir. Səfir vurğulayır ki, Pallone və Nollenberq müraciəti bölgədəki vəziyyəti və beynəlxalq ictimaiyyətin Dağlıq Qarabağın statusuna dair mövqeyini düzgün əks etdirmir. Heç vaxt müstəqil, yaxud Ermənistana daxil olmayan Dağlıq Qarabağ BMT və digər beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınır. Buna görə də ABŞ Dağlıq Qarabağla bağlı hər hansı siyasi və iqtisadi addımı Azərbaycanın hüquqi, siyasi və iqtisadi mənafeyi çərçivəsində atmalıdır.

Hafiz Paşayev Konqres üzvlərinə bütün dünyaya məlum olan faktları açıqlamışdır: Ermənistanın təcavüzü nəticəsində təkcə Dağlıq Qarabağ deyil, həm də Azərbaycanın digər yeddi bölgəsi işğal edilmiş, bir milyon qaçqın və məcburi köçkün yaranmışdır. Zəbt etdiyi torpaqlarda etnik təmizləmə apardıqdan sonra Ermənistan və Dağlıq Qarabağ erməniləri “demokratik imic” düzəltməklə məşğul olmuş, biri-birinin ardınca seçkilər keçirmişlər. Bu seçkilər heç bir beynəlxalq qurum və dövlət tərəfindən tanınmamışdır. Birləşmiş Ştatların özü isə bu seçkiləri qanunsuz və Minsk prosesinə maneə kimi qiymətləndirmişdir.

Azərbaycan səfiri işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılması haqda BMT Təhlükəsizlik Şurası qətnamələrinin, NATO və ATƏT-in çağırışlarının Ermənistan tərəfindən cavabsız qaldığını vurğulamışdır. O da xatırladılmışdır ki, 1994-cü ildə Rusiya atəşkəs rejiminin əldə olunmasında vasitəçilik etsə də, məhz Rusiyanın Ermənistana hərbi yardımı, o cümlədən, 1 milyard ABŞ dolları dəyərində qanunsuz silahın ötürülməsi ermənilərin işğalçı siyasətinə kömək etmişdir.

Hafiz Paşayev konqresmenləri Azərbaycanın ərazi bütövlüyünü tanıyan ABŞ-ın rəsmi siyasətinə hörmətlə yanaşmağa çağırmışdır. O bildirmişdir ki, Azərbaycan və Ermənistan arasında sülh danışıqları gedən bir mərhələdə Pallone-Nollenberq təşəbbüsünə hər hansı dəstək Minsk prosesinə vurulan zərbə olacaqdır.

Eyni zamanda, səfir xatırlatmışdır ki, Azərbaycan artıq ermənipərəst Konqres üzvlərinin təşəbbüsündən əziyyət çəkibdir: “Azadlığa dəstək aktı”na 907-ci düzəliş nəticəsində Azərbaycan ABŞ yardımından məhrum edilən yeganə dövlət idi. Məlum 11 sentyabr hadisələrindən sonra ABŞ hökuməti ədalətsiz düzəlişin qüvvəsini dayandırmış, beləliklə də, Amerikanın maraqlarının nədən ibarət olduğunu nümayiş etdirmişdir. Hafiz Paşayev Konqres üzvlərini Pallone-Nollenberq təşəbbüsünə münasibət bildirərkən bütün bunları unutmamağa çağırmışdır.

**“AzərTAC” 19.08.05**

## Vaşinqton Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır

ABŞ dövlət katibi Kondoliza Raysın Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Prezidenti Robert Koçaryanın Kazan görüşü ərəfəsində onlarla telefon söhbəti ilə əlaqədar ABŞ Dövlət Departamenti bəyanat yaymışdır.

Sənəddə deyilir ki, telefon söhbəti zamanı Kondoliza Rays prezidentlərin görüşünə ABŞ-ın çox böyük əhəmiyyət verdiyini və Dağlıq Qarabağ münaqişəsinin həllində tərəflərin razılığa gələcəklərinə ümid bəslədiyini bildirmişdir.

Bəyanatda daha sonra deyilir: "ABŞ Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Vaşinqton Dağlıq Qarabağın statusunun münaqişə tərəfləri arasında danışıqların yekunları əsasında müəyyən edilməsinə və problemin ATƏT-in Minsk qrupu çərçivəsində həll olunmasına tərəfdardır".

**"AzərTAC" 30.08.05**

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli Böyük Britaniyanın maraqlarına cavab verir

Bu fikir Azərbaycanın müdafiə naziri, general-polkovnik Səfər Əbiyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Lorens Bristoun və Britaniya Hərbi Məsləhət-Təlim Qrupunun komandiri, polkovnik Xyu Pyorseli ilə görüşündə vurğulanmışdır.

Nazir Səfər Əbiyev Britaniya Hərbi Məsləhət-Təlim Qrupunun Azərbaycan Silahlı Qüvvələri üçün təlimatçılar hazırlamasını yüksək qiymətləndirmiş, bunun Silahlı Qüvvələrimizin sülhməramlı əməliyyatlarda iştirakına, hərbi kadrların hazırlanmasına, Silahlı Qüvvələrdə islahatların uğurla aparılmasına, Fərdi Tərəfdaşlığın Fəaliyyət Planı müddəalarının yerinə yetirilməsinə müsbət təsir göstərəcəyini söyləmişdir.

Polkovnik Xyu Pyorselin NATO sistemində uzun illər işləmiş təcrübəli zabit kimi onun qrupunun Azərbaycanda təlimatçılar hazırlamasının Böyük Britaniya-Azərbaycan hərbi əməkdaşlığının möhkəmlənməsinə xidmət etdiyini söyləyən səfir məlumat vermişdir ki, Azərbaycanın hərbi qulluqçuları çox savadlı və hazırlıqlıdırlar. Biz gələcəkdə də bu faydalı əməkdaşlığı davam etdirmək niyyətindəyik. Səmərəli əməkdaşlığa görə sizə təşəkkür edirəm.

General-polkovnik Səfər Əbiyev Cənubi Qafqaz regionunda mövcud hərbi-siyasi vəziyyət və Ermənistan-Azərbaycan münaqişəsinin həllinə toxunaraq demişdir ki, Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə külli miqdarda silah və sursat yerləşdirilmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan torpaqlarını boşaltması haqqında dörd qətnamə qəbul etməsinə baxmayaraq, Ermənistan bu qətnamələrin tələblərini yerinə yetirməkdən imtina edir. Ermənistan bu gün də öz havadarları tərəfindən silahlandırılır. Azərbaycan münaqişənin həllində ikili standartların təzyiqi ilə üzləşir və buna görə də işğalçı Ermənistan dövləti özünü cəzasız və sərbəst hiss edir. Azərbaycan öz torpaqlarını azad etmək iqtidarındadır və belə getsə, biz torpaqlarımızı azad edəcəyik.

Səfir Lorens Bristoun bu münaqişənin mahiyyətini yaxşı bildiyini vurğulayaraq söylədi ki, Prezident İlham Əliyevin danışıqlarda iştirak etməsi faydalı hadisədir. Azərbaycan münaqişənin həlli istiqamətində uğurla işləyir. Böyük Britaniya Azərbaycan Prezidentinin problemin həlli istiqamətində apardığı strateji kursu dəstəkləyir və problem beynəlxalq hüquq normaları əsasında həll edilməlidir. Problemin ədalətli həlli Böyük Britaniyanın maraqlarına cavab verir.

Ermənistan işğalçı dövlətdir, bütün dövlətlər bunu mütləq görməli, təsdiq etməli və Azərbaycan torpaqlarının tezliklə boşaldılması istiqamətində tədbirlər görməlidir – deyən nazir bəyan etmişdir ki, məsələ tezliklə bu şəkildə həll edilməsə, Azərbaycan xalqı özü münaqişənin həlli barədə qərar qəbul edəcəkdir.

**"AzərTAC" 01.09.05**

## Parisdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə alt komitənin iclası keçirilmişdir

Sentyabrın 12-də Parisdə Avropa Şurası Parlament Assambleyasının yanvar sessiyasında Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçi, ingiltərəli deputat Devid Atkinsonun hesabatı ilə əlaqədar qəbul olunmuş qətnamənin icrası məqsədi ilə yaradılmış alt komitənin ikinci iclası keçirilmişdir.

Komitənin üzvü, Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin başçısı, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr daimi komissiya-

sının sədri Səməd Seyidovdan müsahibə almışdır. O demişdir:

– Biz AŞPA-nın yanvar sessiyasında qəbul olunmuş qətnamədən sonra bu işi davam etdirmək niyyətində idik. Ona görə də AŞPA bürosunun bu komitənin yaradılması barədə qəbul etdiyi qərar çox mühüm idi.

İclasa komitə üzvlərindən savayı, Minsk qrupunun rusiyalı həmsədri Yuri Merzlyakov və fransalı həmsədr Bernar Fasye, amerikalı həmsədri əvəz edən ABŞ Dövlət Departamentinin nümayəndəsi Con Krosbi, ölkəmizin xarici işlər nazirinin müavini Araz Əzimov, Ermənistan Xarici İşlər Nazirliyinin nümayəndəsi Varucan Nersisyan, ATƏT-in təmsilçisi Anji Kaspşik, ATƏT Parlament Assambleyasının Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi Qoran Lenmarker, Avropa Birliyinin Qafqaz üzrə xüsusi nümayəndəsi Heyki Talvitiye və Böyük Britaniyanın "Links" qeyri-hökumət təşkilatının rəhbəri Dennis Sammut da dəvət edilmişdilər.

Müzakirələr obyektiv xarakter daşımış, münaqişənin həll olunması istiqamətində geniş fikir mübadiləsi aparılmışdır. Bu müzakirəni əvvəlkilərindən bir cəhətlə fərqləndirə bilərəm ki, başqa müzakirələr zamanı daha çox tarixi faktlara müraciət edilirdisə, indiki iclasda münaqişənin beynəlxalq hüquq normalarına uyğun olaraq həlli yolları axtarılırdı. Təbii ki, bir iclasın nəticəsi kimi, bu münaqişənin həll olunması və yaxud hər hansı bir qətnamənin qəbul edilməsi mümkün deyildir. Amma bizim üçün vacib olan belə bir qərar qəbul edildi ki, AŞPA yanvar sessiyasında qəbul olunmuş qərarın yerinə yetirilməsi ilə daha fəal məşğul olsun və hər bir sessiyada bununla bağlı görüşlər keçirilsin. Məhz bunun davamı olaraq, qurumun oktyabr ayında başlanacaq payız sessiyasında Azərbaycan və Ermənistan nümayəndə heyətləri arasında görüşlərin keçirilməsi qərara alınmış, dekabrda isə siyasi komitə çərçivəsində alt komitənin növbəti iclasının keçirilməsi planlaşdırılmışdır. Həmin iclasda bu sahədə görülmüş işlər və nəticələr müzakirə olunacaqdır. Çox ehtimal ki, gələn ilin yanvar sessiyasında komitə gördüyü işlərlə əlaqədar AŞPA bürosuna məlumat verəcəkdir. Bu məlumatın nəticəsi kimi, biz növbəti addımlar haqqında düşünməliyik. Biz bu işi AŞPA-da qətiyyətlə davam etdirəcək, münaqişə tam həll olunana qədər onun gündəlikdə saxlanılmasında israrlı olacağıq.

İclasda problemlə bağlı həqiqətləri əks etdirən çıxışlarla yanaşı, hansısa qeyri-obyektiv fikirlər də səslənmişdir. Bu da təbiidir. Əgər bütün çıxışlar obyektiv olsaydı, yəqin ki, problem çoxdan öz həllini tapmış olardı. Amma məsələ tam həllini tapmadığına görə də, məhz belə bir komitənin yaradılması qərara alınmışdır. Komitə hansısa beynəlxalq təşkilatı əvəz etmək fikrində deyildir. Amma dəyərli təkliflər verməklə bu münaqişənin həllində yardımçı rolu oynayır və bununla bağlı müzakirələr aparır. Ona görə də belə dinləmələr əhəmiyyətlidir. Biz belə dinləmələrdə həmişə fəal iştirak etmişik və bundan sonra da edəcəyik.

**"AzərTAC" 13.09.05**

## BMT-nin Baş Assambleyası Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyətə dair məsələnin 60-cı sessiyanın gündəliyinə salınması barədə qərar qəbul etmişdir

BMT Baş Assambleyasının 59-cu sessiyasında Azərbaycan Respublikasının təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" barədə məsələ Ermənistanın müqavimətinə baxmayaraq, 163-cü bənd kimi sessiyanın gündəliyinə salınmışdı. Görülmüş tədbirlər nəticəsində regiona ATƏT-in Faktaraşdırıcı Missiyası göndərilmiş, qeyri-qanuni məskunlaşma prosesi aşkar olunmuşdur.

Cari ilin sentyabr ayının 12-də, Baş Assambleyanın 59-cu sessiyasının son günləri zamanı, onun sədri olan Qabonun xarici işlər naziri Jan Pinqin rəhbərliyi altında Baş Assambleya Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində vəziyyətə dair bəndin təşkilatın yeni, 60-cı sessiyasının da gündəliyinə salınması haqqında yekdilliklə qərar qəbul etmişdir.

Öz narazılığını bildirən Ermənistanın daimi nümayəndəsi Baş Assambleyanı ölkəsinin danışıqlar prosesindən kənarlaşmasının mümkünlüyü ilə hədələməkdən başqa heç bir şeylə fərqlənməmişdir.

Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyev müxbirimizlə söhbətində demişdir ki, "Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası bir daha prinsipial mövqe nümayiş etdirərək, Azərbaycanın ədalətli addımını dəstəkləyərək bu mühüm məsələnin müzakirəsini davam etməyi qərara almışdır. Bu da, öz növbəsində işğal olunmuş ərazilərin azad olunması uğrunda vacib siyasi-diplomatik amildir".

**"AzərTAC" 14.09.05**

## Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının və Gürcüstan Hökumət Komissiyasının yeddinci birgə iclası keçirilmişdir

Avqustun 30-31-də Bakıda Azərbaycan ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası üzrə Azərbaycan Respublikası Dövlət Komissiyasının və Gürcüstan Hökumət Komissiyasının yeddinci birgə iclası keçirilmişdir.

Nazir müavini Xələf Xələfovun və Gürcüstan XİN-in fövqəladə tapşırıqlar üzrə Səfiri Malxaz Mikeladzenin rəhbərlik etdikləri Komissiyaların iclasında dövlət sərhədi xəttinin haradan keçməsi məsələlərinə baxılmış və komissiyalar çərçivəsində gələcək müzakirə üçün müəyyən sənədlərin mübadiləsi baş vermişdir.

İclasda aparılmış danışıqlar nəticəsində dövlət sərhədi xəttinin bir sıra sahələri razılaşdırılmışdır. Tərəflər razılaşdırılmamış sahələr barədə müzakirənin davam etdirilməsini və Komissiyaların növbəti iclasınadək müvafiq materialların işlənib hazırlanmasını qərara almışlar.

Komissiyaların növbəti iclasını Tbilisi şəhərində keçirmək qərara alınmışdır. İclasın vaxtı diplomatik kanallarla razılaşdırılacaqdır.

**XİN-in Mətbuat Mərkəzinin**
**31.08.05 tarixli məlumatı**

## Milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun xarici ekspertlərlə birgə Milli Təhlükəsizlik Konsepsiyasının müzakirəsi üzrə iclası keçirilmişdir

Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun (İQ) Fəaliyyət Planına uyğun olaraq, 2005-ci il sentyabr ayının 30-da Xarici İşlər Nazirliyində Milli təhlükəsizlik siyasəti sahəsində İşçi Qrupunun xarici ekspertlərlə birgə Milli Təhlükəsizlik Konsepsiyasının müzakirəsi üzrə iclası keçirilmişdir. Xarici işlər nazirinin müavini Araz Əzimovun ümumi sədrliyi ilə keçirilən bu tədbirdə Azərbaycan Respublikasının milli maraqları, Azərbaycan Respublikasının təhlükəsizlik mühiti, daxili və xarici təhlükəsizlik siyasətinin əsas komponentləri və milli təhlükəsizlik sektorunun islahatı məsələlərinə baxılmışdır.

## BRİFİNQLƏR

**Azər Hüseyn, Xarici İşlər Nazirliyinin İkinci Ərazi idarəsinin rəisi**
Tematik Brifinq
Tarix - 05 iyul 2005-ci il

**Mahmud Məmmədquliyev, xarici işlər nazirinin müavini**
Tematik Brifinq
Tarix - 7 iyul 2005-ci il

**Araz Əzimov, xarici işlər nazirinin müavini**
Tematik Brifinq
Tarix - 18 iyul 2005-ci il

**Tahir Tağızadə, Xarici İşlər Nazirliyinin Mətbuat və İnformasiya Siyasəti idarəsinin rəisi**
Tematik Brifinq
Tarix - 9 avqust 2005-ci il

# TƏDBİRLƏR

## "Terrorçuluqla mübarizə və insan hüquqları" mövzusunda seminar

***Bakı, 16 iyul 2005***

Cari il iyul ayının 16-da Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikası Milli Məclisi, Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzi və Almaniyanın Fridrix Ebert Fondunun birgə təşkil etdiyi "Terrorçuluqla mübarizə və insan hüquqları" mövzusunda seminar keçirilmişdir. Seminarın işində müvafiq dövlət orqanları və Azərbaycanda fəaliyyət göstərən səfirlik və beynəlxalq təşkilatların əməkdaşları, eləcə də ekspertlər və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişdirlər.




Tədbirdə beynəlxalq hüquq üzrə tanınmış mütəxəssis - Berlin Humbolt Universitetinin professoru Kristian Tomuşatın çıxışı və onun seminar iştirakçıları tərəfindən verilən çoxsaylı sualların cavablandırılması xüsusi maraq kəsb etmişdir. Seminarda müzakirə olunan mövzu ilə bağlı həmçinin Milli Məclisin Inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov və XİN-in Xarici siyasətin planlaşdırılması və strateji araşdırmalar idarəsinin (Mərkəz) rəisi Tofiq Musayev çıxış etmişdirlər.

Məlum olduğu kimi, 11 sentyabr 2001-ci ildə Amerika Birləşmiş Ştatlarına qarşı edilmiş hücumlar terrorçuluğun beynəlxalq sülh və təhlükəsizliyə, həmçinin qanunun aliliyi və insan hüquqlarının müdafiəsinə qarşı yaratdığı təhlükəni yeni diqqət mərkəzinə qaldırdı. 28 sentyabr 2001-ci ildə BMT-nin Təhlükəsizlik Şurası BMT Nizamnaməsinin VII Fəslinin ona verdiyi yurisdiksiyaya əsaslanaraq beynəlxalq terrorçuluqla mübarizə məqsədilə bütün hökumətlər tərəfindən geniş miqyaslı tədbirlərin görülməsini tələb edən 1373 saylı Qətnamə qəbul etmişdir. Təhlükəsizlik Şurası qətnamənin həyata keçirilməsinə nəzarət məqsədilə Terrorçuluq əleyhinə Komitə yaratmış və dövlətlərdən görülmüş işlər barədə ona məruzə etməyi tələb etmişdir.

Eyni zamanda seminarda qeyd olundu ki, BMT vasitəsilə beynəlxalq birlik terrorizmlə mübarizə probleminə illərlə müraciət etmiş, mühüm konvensiyalar qəbul etmiş, lakin terrorçuluğun tərifinə dair ümumi razılığa gələ bilməmişdir.

Habelə vurğulandı ki, beynəlxalq hüquqa uyğun olaraq dövlətlər milli təhlükəsizliyi əsas gətirərək terrorçuluq kimi təhlükələrlə mübarizədə insan hüquq və azadlıqlarını məhdudlaşdıra bilərlər. Belə ki, xüsusi fövqəladə vəziyyət hallarında hökumətlər, "təmin edilməsi məcburi olan" hüquqlar istisna olmaqla, bir sıra müəyyən edilmiş hüquq və azadlıqlara münasibətdə öz öhdəliklərinin həyata keçirilməsini müvəqqəti dayandıra bilərlər.

Bununla əlaqədar olaraq, seminarda həm terrorçuluğun müzakirəsinə, həm də onun aradan qaldırılmasında insan hüquqları və qanunun aliliyi standartlarının qorunmasının təmin edilməsi imkanları nəzərdən keçirilmişdir. Xüsusi diqqət milli və ya dövlət təhlükəsizliyi və insan hüquqları arasında ənənəvi ziddiyyətin aradan qaldırılması üçün yeni yolların axtarılması məsələsinə yönəldilmişdir.

### Summary of presentation by Professor Christian Tomuschat Humboldt University, Berlin

### *The Fight Against Terrorism and the Rule of Law*

### I. The Definition of Terrorism

For many decades, a heated debate took place on the essential features of terrorism. The report of the "16 Wise Men" ("High-level Panel on Threats, Challenges and Change"[1]), presented to the UN Secretary-General on 1 De-

1 UN doc. A/59/565, 2 December 2004.

cember 2004, has greatly clarified this controversial issue. It defines terrorism, to the extent that no special description of terrorism is applicable, as “any action … that is intended to cause death or serious bodily harm to civilians or non-combatants, when the purpose of such an act, by its nature or context, is to intimidate a population, or to compel a Government or an international organization to do or to abstain from doing any act”.

It results from this report that terrorism is seen as a criminal activity carried out by private individuals or groups, but not by States. The report specifies that if States commit atrocities, they either commit war crimes or crimes against humanity.

## II. Causes of Terrorist Activities

Terrorist acts never come out of the blue. They have many root causes which will never be understood to their full extent. In any event, in a civilized society attacks directed against civilians, including women and children, are totally unacceptable. Such attacks constitute serious crimes which should be prosecuted according to their gravity.

## III. Fight Against Terrorism

Combating terrorism is necessary. States are under an obligation to guarantee the security of their citizens. But the fight against terrorist activities must proceed within the framework of the rule of law. It does not suspend all civil liberties. Citizens should resist demands by governments, which are often portrayed as a panacea, to introduce a permanent state of emergency in order to increase the effectiveness of their instruments.

## IV. Prevention of Terrorism

The best strategy for fighting terrorism is to remove the root causes that may motivate individual persons or entire groups to engage in terrorist activities. However, it will never be possible to establish perfect justice and happiness on earth. Also those who feel discriminated against and marginalized must respect the life and physical integrity of their fellow human beings.

Efforts to eradicate poverty and discrimination should be accompanied by drastic measures against preachers of hatred. Like wars, terrorism has its origin in the minds of people. The International Covenant on Civil and Political Rights (CCPR, Art. 20 (2)) explicitly instructs States parties to prohibit “any advocacy of national, racial or religious hatred that constitutes incitement to discrimination, hostility or violence”.

Many practical police measures can be taken against terrorist threats within the normal framework of the provisions of the CCPR and the European Convention on Human Rights (ECHR), such as a) establishment of communication control systems (telephone tapping etc.), b) tightening of border controls even within a region committed to abolishing such controls, c) resort to more frequent police controls in urban centres, d) introduction of compulsory identity documents for everyone.

None of such measures should be taken lightly. Defenders of civil liberties feel generally inclined to reject such control systems. However, the life and physical integrity of human beings are superior values. In a balancing test, they will prevail.

Administrative detention of suspects constitutes also a preventive measure, but it completely destroys the delicate balance between governmental power holders and citizens, the “governed”. Permanent detention can never be admissible under the rule of law. In this respect, the judgments of the US Supreme Court in the aftermath of 9/11 (June 2004) are to be criticized because they accept, as a hypothesis, that suspects might be kept for their whole life until the war on terror has been won. By contrast, the British House of Lords, in a judgment of 16 December 20004, ruled that indefinite detention without any formal charge is disproportionate to the aims it pursues, is therefore contrary to the ECHR and cannot be continued.

## V. Measures for the Suppression of Terrorsm

It should be re-emphasized that indiscriminate attacks against a civilian population are serious crimes. Stiff penalties should be provided for such crimes in each and every State.

Proceedings should be conducted according to normal rules. “Faceless judges” are unacceptable. Nor can the burden of proof be put on an accused.

International cooperation is necessary. The United Nations has brought into being a tight network of twelve anti-terrorism conventions

which all contain clauses according to which the State where an alleged offender is found must either try that person or extradite to him to another country which has legitimate grounds to put him/her on trial. Unfortunately, these conventions have been little effective because in many instances terrorist activities are tacitly or even openly supported by one – or even more – government(s).

It remains open whether universal jurisdiction exists for all terrorist offences outside the agreements just referred to. Universal jurisdiction means that any judicial body anywhere in the world may prosecute particularly atrocious crimes even though there exists no concrete link establishing a relationship between the prosecuting State and the crime and its victims.

It should not be overlooked that terrorist offences are not listed as crimes against humanity in the jurisdictional clauses of the International Criminal Court.

In the European Union, a special regime of arrest warrants was introduced by a decision of 13 June 2002 which entered into force on 1 January 2004. The warrant applies in the following cases:

- where a final sentence of imprisonment or a detention order has been imposed for a period of at least four months;
- for offences punishable by imprisonment or a detention order for a maximum period of at least one year.

If punishable in the issuing Member State by a custodial sentence of at least three years, in particular terrorism may give rise to surrender without verification of the double criminality of the act. Obviously, the European arrest warrant expedites proceedings. But there are also fears that it might be abused and that the level of judicial protection might not be adequate in other countries of the Union.

In Germany, the European arrest warrant has been challenged before the Constitutional Court. A judgment is expected on 18 July 2005.

## VI. Measures to be Taken Against States supporting Terrorism

States that support terrorist activities can be put under pressure by measures short of war, i.e. non-military measures.

The Security Council may make determinations to the effect that a State openly supporting terrorism or harbouring terrorists constitutes a threat to international peace and security. Accordingly, all the measures authorized by Chapter VII of the UN Charter may be taken against it. In fact, the Security Council twice requested the extradition of alleged terrorists, in one case against Libya (resolution 748 (1992)) and in another case against Sudan (resolution 1044 (1996)), after an assassination attempt had been committed in Ethiopia against President Mubarak of Egypt.

After the terrorist attack on the World Trade Center in New York and the Pentagon in Washington, the Security Council also implicitly confirmed the view that a State which associates with terrorists may be subject to self-defence measures under Art. 51 of the UN Charter (resolutions 1368 and 1373 (2001)).

## TƏYİNATLAR

### *A.T.HÜSEYNƏ AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DİPLOMATİK RÜTBƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Azər Tofiq oğlu Hüseynə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 avqust 2005-ci il

### *A.T.HÜSEYNİN AZƏRBAYCAN RESPUBLİKASININ YAPONİYADA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azər Tofiq oğlu Hüseyn Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 avqust 2005-ci il

### *M.N.ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏ RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ VƏZİFƏSİNDƏN GERİ ÇAĞIRILMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Məmməd Novruz oğlu Əliyev Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 avqust 2005-ci il

## *M.N.ƏLİYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ İSPANİYA KRALLIĞINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Məmməd Novruz oğlu Əliyev Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 avqust 2005-ci il

## *Z.A.HƏŞİMOVA AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DİPLOMATİK RÜTBƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Zakir Arif oğlu Həşimova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 avqust 2005-ci il

## *Z.A.HƏŞİMOVUN AZƏRBAYCAN RESPUBLİKASININ TÜRKİYƏ RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Zakir Arif oğlu Həşimov Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 avqust 2005-ci il

## *P.O.ŞAHBAZOVA AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DİPLOMATİK RÜTBƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

Pərviz Oqtay oğlu Şahbazova Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 avqust 2005-ci il

## *P.O.ŞAHBAZOVUN AZƏRBAYCAN RESPUBLİKASININ ALMANİYA FEDERATİV RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

Pərviz Oqtay oğlu Şahbazov Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 avqust 2005-ci il.

## *İ.Ə.HACIYEVƏ AZƏRBAYCAN RESPUBLİKASININ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ DİPLOMATİK RÜTBƏSİ VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

"Diplomatik xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.1-ci maddəsini rəhbər tutaraq qərara alıram:

İbrahim Əsəd oğlu Hacıyevə Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri diplomatik rütbəsi verilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 sentyabr 2005-ci il.

## *İ.Ə.HACIYEVİN AZƏRBAYCAN RESPUBLİKASININ İNDONEZİYA RESPUBLİKASINDA FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ TƏYİN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq qərara alıram:

İbrahim Əsəd oğlu Hacıyev Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 sentyabr 2005-ci il.

# TƏRCÜMEYİ-HALLAR



## Azər Hüseyn

| | |
|---|---|
| **Doğulduğu il:** | 1962, Bakı, Azərbaycan |
| **Təhsil:** | Azərbaycan Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1984-1987-** | İraq, Bağdad, tərcüməçi (ərəb dili) |
| **1987-1989-** | Azərbaycan SSR-nin Xarici İşlər Nazirliyi, Protokol şöbəsi, 2-ci katib |
| **1989-1993-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Protokol şöbəsi, 1-ci katib |
| **1993-1997-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Dövlət Protokolu idarəsi, rəis müavini |
| **1997-2001-** | Azərbaycan Respublikasının Türkiyədəki səfirliyi, müşavir |
| **2001-2004-** | "Coca-Cola" şirkətinin Bakıdakı regional nümayəndəliyinin ofisi, rəhbər |
| **2004-2005-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, İkinci (Şərq) Ərazi idarəsi, rəis |
| **2005-ci ilin avqust ayından etibarən-** | Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər-** | İngilis, ərəb, rus və türk |
| **Ailə vəziyyəti-** | Evlidir, iki övladı var |



## Məmməd Əliyev

| | |
|---|---|
| **Doğulduğu il:** | 1942, Tovuz, Azərbaycan |
| **Təhsil:** | Bakı Dövlət Universiteti, Fizika fakültəsi, Qazan Dövlət Universiteti, aspirantura |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfır |
| **1969-1971-** | Bakı Dövlət Universiteti, Fizika fakültəsi, müəllim |
| **1971-1972-** | Paris, L"ENS, elmi ezamiyyət |
| **1972-1991-** | Bakı Dövlət Universiteti, Fizika fakültəsi, professor |
| **1991-1992-** | Azərbaycan Dövlət Tibb Universiteti, Bioloji fizika kafedrası, müdir |
| **1992-2005-** | Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri |
| **2005-ci ilin avqust ayından etibarən-** | Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər-** | Türk, rus, fransız, ingilis və alman |
| **Ailə vəziyyəti-** | Evlidir, üç övladı var |



# Zakir Həşimov

| | |
|---|---|
| **Doğulduğu il:** | 1957, Bakı, Azərbaycan |
| **Təhsil:** | Leninqrad Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1979-1982-** | Azərbaycan SSR-nin Elmlər Akademiyası, Yaxın və Orta Şərq İnstitutu, baş laboratoriya assistenti |
| **1982-1985-** | SSRİ-nin Xarici İqtisadi Əlaqələr Nazirliyi, baş tərcüməçi, Türkiyə Respublikası |
| **1986-1991-** | Bakı Şəhər Millət Vəkilləri Şurası, Beynəlxalq Münasibətlər şöbəsi, müdir müavini, instruktor |
| **1991-1994-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Protokol şöbəsi, 1-ci katib |
| **1994-1997-** | Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi, 1-ci katib |
| **1997-2001-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Dövlət Protokolu idarəsi, rəis müavini-şöbə müdiri |
| **2001-2002-** | Azərbaycan Respublikasının Çin Xalq Respublikasında müvəqqəti işlər vəkili |
| **2002-2005-** | Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı səfirliyi, müşavir |
| **2005-ci ilin avqust ayından etibarən-** | Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər-** | Türk, rus və ingilis |
| **Ailə vəziyyəti-** | Evlidir, bir övladı var |



## Pərviz Şahbazov

| | |
|---|---|
| **Doğulduğu il:** | 1969, Bakı, Azərbaycan |
| **Təhsil:** | Dövlət Neft Akademiyası, Mühəndis-iqtisadiyyat fakultəsi |
| **Diplomatik rütbəsi:** | Fövqəladə və səlahiyyətli səfir |
| **1991-1992 -** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Beynəlxalq İqtisadi Əlaqələr idarəsi, 2-ci katib |
| **1992-1996 -** | Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyi, attaşe |
| **1996-1997 -** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Avropa, ABŞ və Kanada idarəsi, 2-ci katib |
| **1997-1998 -** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Avropa, ABŞ və Kanada idarəsi, 1-ci katib |
| **1998-1999-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Avropa, ABŞ və Kanada idarəsi, şöbə müdiri |
| **1999-2001-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Avropa, ABŞ və Kanada idarəsi, rəis müavini |
| **2001-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Birinci (Qərb) Ərazi idarəsi, rəis müavini |
| **2001-2004-** | Azərbaycan Respublikasının Avstriyadakı səfirliyi, müşavir |
| **2004-** | Azərbaycan Respublikasının Avstriyada müvəqqəti işlər vəkili |
| **2005-** | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumu, sədr |
| **2005-ci ilin avqust ayından etibarən-** | Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər-** | Alman, ingilis, rus |
| **Ailə vəziyyəti-** | Evlidir, iki övladı var |



# İbrahim Hacıyev

| | |
|---|---|
| **Doğulduğu il:** | 1945, Astara, Azərbaycan |
| **Təhsil:** | M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu, İngilis dili bölməsi |
| **1964-1967 -** | Hərbi xidmət |
| **1970-1971-** | M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər Institutu, laborant, baş laborant |
| **1971-1973 -** | Xarici İqtisadi Əlaqələr üzrə SSRİ-nin Dövlət Komitəsi, ingilis dili tərcüməçisi, Xartum, Sudan |
| **1973-1976 -** | SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, baş laborant, ingilis dili müəllimi |
| **1976-1983 -** | Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, şöbə müdiri |
| **1983-1984 -** | SSRİ Mədəniyyət Mərkəzi, filmoteka müdiri, attaşe, Bombey, Hindistan |
| **1984-1988 -** | SSRİ Mədəniyyət Mərkəzinin direktoru, vitse-konsul, Bombey, Hindistan |
| **1988-1990 -** | Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti, şöbə müdiri |
| **1990-1996 -** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, idarə rəisi |
| **1996-1998 -** | İslam Elmi, Təhsili və Mədəniyyəti Məsələləri üzrə Təşkilat, proqram tərtibatçısı, Rabat, Mərakeş |
| **1998-2005-** | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, idarə rəisi |
| **2005-ci ilin sentyabr ayından etibarən -** | Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri |
| **Xarici dillər -** | İngilis, rus |
| **Ailə vəziyyəti -** | Evlidir, iki övladı var |

# ETİMADNAMƏLƏRİN TƏQDİM EDİLMƏSİ

## Azərbaycan Respublikasının səfiri etimadnaməsini Koreya Respublikasının Prezidentinə təqdim etmişdir

Azərbaycan Respublikasının Koreya Respublikasındakı səfiri Yaşar Əliyev öz etimadnaməsini Prezident Roh Mu-Hyuna təqdim etmişdir.

Təqdimat mərasimindən sonra keçirilmiş görüşdə səfir Y.Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Koreya Respublikasının Prezidentinə çatdırmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat vermiş, ölkəmizin son illərdə qazandığı iqtisadi nailiyyətlər, iştirak etdiyi mühüm regional layihələr barədə söhbət açmış, dövlətlərimiz arasında münasibətlərin daha da inkişaf edəcəyinə ümid bəslədiyini bildirmişdir.

Prezident Roh Mu-Hyun ölkələrimizin dostluq əlaqələrinin Böyük İpək yolu dövründən mövcud olduğunu bildirmiş, son zamanlar Koreya hökumətinin və xalqının Azərbaycana marağının artdığını vurğulamışdır.

Ölkəsinin və xalqının Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Azərbaycan hissəsinin istifadəyə verilməsini çox yüksək qiymətləndirdiyini vurğulayan prezident Roh Mu-Hyun demişdir ki, hazırda Koreya Respublikasının hökumətində və işgüzar dairələrində Azərbaycanla əməkdaşlıq imkanlarının araşdırılması üzrə müzakirələr aparılır. O, həmçinin, Azərbaycan Respublikası Prezidentinin Koreya Respublikasına rəsmi səfəri və ölkələrimizdə qarşılıqlı olaraq diplomatik nümayəndəliklərin açılması ilə bağlı məsələlərin diqqət mərkəzində olduğunu vurğulamışdır.

Prezident Roh Mu-Hyun demişdir ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyevin Koreya Respublikasına səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında yeni mərhələ açacaqdır.

Azərbaycan səfiri Koreya Respublikasının xarici işlər və ticarət naziri, Koreya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (KOİCA) rəhbərliyi və ölkənin digər rəsmiləri ilə görüşlər keçirmiş, danışıqlar aparmışdır.

**"AzərTAC" 05.07.05**

## Azərbaycan Respublikasının səfiri etimadnaməsini Türkiyə Respublikasının Prezidentinə təqdim etmişdir

Avqustun 24-də Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər Çankaya köşkündə Azərbaycan Respublikasının qardaş ölkəyə yeni təyin olunmuş səfiri Zakir Həşimovu qəbul etmişdir.

Təntənəli şəraitdə keçirilən qəbulda səfir Zakir Həşimov etimadnaməsini Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərə təqdim etdi.

Daha sonra Prezident ilə səfirin təkbətək söhbəti oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını Prezident Əhməd Necdət Sezərə çatdıran səfir ölkələrimiz arasındakı əbədi və sarsılmaz dostluq və qardaşlıq əlaqələrindən söhbət açdı, dərin tarixi köklərə malik olan əlaqələrimizin müasir mərhələdəki inkişafında türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi vurğuladı.

Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər səfiri təbrik etdi, ona yeni vəzifəsində müvəffəqiyyətlər arzuladı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə salamlarını, dərin hörmət və ehtiramını çatdırmağı xahiş etdi, Türkiyə-Azərbaycan əlaqələrinin inkişafından məmnunluğunu dilə gətirdi.

Görüşdə Ermənisan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesi, Ermənistanın işğalçı siyasəti nəticəsində doğma torpaqlarından didərgin düşən vətəndaşlarımızın vəziyyəti barədə Türkiyənin dövlət başçısına müfəssəl məlumat verildi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri haqqında ətraflı söhbət aparıldı.

Səfir yüksək qonaqpərvərlik, səmimi qəbul üçün Türkiyənin Prezidentinə təşəkkürünü bildirdi.

Elə həmin gün səfir Zakir Həşimov Türkiyə Respublikasının qurucusu, böyük sərkərdə və siyasi xadim Mustafa Kamal Atatürkün "Anıtqəbir" mavzoleyini ziyarət etdi, ulu öndərin məqbərəsinə əklil qoydu, onun xatirəsini ehtiramla yad etdi, fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

**"AzərTAC" 24.08.05**

## Azərbaycan Respublikasının səfiri etimadnaməsini Latviya Prezidentinə təqdim etmişdir

Azərbaycanın Latviyadakı səfiri Tofiq Zülfüqarov sentyabrın 27-də etimadnaməsini respublikanın Prezidenti xanım Vayra Vike-Freyberqaya təqdim etmişdir.

Təqdimat mərasimində səfir T.Zülfüqarov Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarını Latviya Prezidentinə çatdıraraq ölkələrimiz arasında əlaqələrin inkişafı üçün səylə çalışacağını vurğulamışdır.

Mərasimdən sonra keçirilmiş görüşdə Latviya Prezidentinin bu il oktyabrın 3-4-də Azərbaycana nəzərdə tutulan rəsmi səfəri ilə bağlı hazırlıq məsələlərinə dair fikir mübadiləsi aparılmışdır. Səfir bu səfərin ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm mərhələ olacağını qeyd etmişdir.

Prezident Vayra Vike-Freyberqa səfirliyin məhz Latviyada açılması barədə Azərbaycan Hökumətinin qərarını yüksək qiymətləndirdiyini, ölkəmizə rəsmi səfərini və dövlətimizin başçısı ilə görüşünü səbirsizliklə gözlədiyini və bu səfərin ikitərəfli əlaqələrin inkişafına yeni təkan verəcəyini vurğulamışdır.

Səfir Tofiq Zülfüqarov gələn həftə Latviyanın digər rəsmi şəxsləri ilə tanışlıq görüşləri keçirəcəkdir.

**“AzərTAC” 27.09.05**

## Azərbaycan Respublikasının səfiri etimadnaməsini Almaniya Federativ Respublikasının Prezidentinə təqdim etmişdir

Sentyabrın 27-də Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Pərviz Şahbazov öz etimadnaməsini Almaniya Prezidenti Horst Kölerə təqdim etmişdir.

Etimadnamənin təqdim olunmasından sonra Prezident Horst Köler Azərbaycan diplomatı ilə söhbət etmişdir. Səfir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səmimi salamlarını və xoş arzularını Almaniya Prezidentinə çatdırmışdır.

Cənab Horst Köler Azərbaycan Prezidentinin ötən il avqustda Almaniyaya səfərini və onunla görüşünü məmnuniyyətlə xatırladığını bildirmişdir.

Səmimi söhbət zamanı Almaniya və Azərbaycan arasındakı ikitərəfli əlaqələr müzakirə olunmuş, mövcud siyasi münasibətlərdən razılıq ifadə edilmiş, iqtisadi əməkdaşlığın daha da gücləndirilməsi zərurəti vurğulanmışdır.

Ölkəmizdə aparılan demokratik islahatlar, qarşıdan gələn parlament seçkilərinə hazırlıq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Cənubi Qafqazda, ümumən Qafqaz-Xəzər bölgəsində vəziyyət, beynəlxalq münasibətlər barədə də söhbət getmişdir.

**“AzərTAC” 27.09.05**

## *Процесс контроля над вооружением в Закавказье*

*Евгений Алиев**

В настоящее время внимание многих политологов и экономистов приковано к процессам, происходящим в государствах постсоветского пространства. При этом особый интерес вызывают государства южно-кавказского региона: Азербайджанская Республика, Грузия и Республика Армения. Такие факторы как их геостратегическое и геополитическое расположение, наличие значительных энергоресурсов и магистральных путей их транспортировки, борьба между США и Россией за передел зон влияния, проведение США глобальной антитеррористической операции, наличие в относительно небольшом регионе многочисленных зон нестабильности (локальные региональные конфликты) объясняют причину столь пристального внимания со стороны мирового сообщества к этим трем государствам. Немаловажным составляющим элементом при проведении общего анализа ситуации в регионе является оценка состояния Вооруженных Сил (ВС) и других вооруженных формирований, находящихся на территориях этих государств.

В данной статье вниманию представляется количественный анализ ВС и прослеживается динамика изменений цифровых показателей за период с момента приобретения государствами Закавказья независимости до сегодняшних дней.

Ранее[1] нами были освещены вопросы, связанные с началом процесса реализации Договора об обычных вооруженных силах в Европе (ДОВСЕ). Как отмечалось, разрешенные уровни наличия вооружений и техники для государств СНГ устанавливались Ташкентским Соглашением 1992 года. Для государств Южного Кавказа, расположенных в так называемом «фланговом» районе действия ОВСЕ, были определены равные максимальные уровни наличия ограничиваемых ОВСЕ вооружений и техники (ОДВТ) (Таблица 1).

